# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 34 (3450) Cümə axşamı / 1-7 sentyabr 2022-ci il Qiyməti 40 qəpik


# Brüssel görüşü

*Avqustun əvvəlində ermənilərin təxribatlarına qarşı həyata keçirilən "Qisas" əməliyyatından sonra Azərbaycan və Ermənistan arasında ən yüksək səviyyədə ilk təmas reallaşıb. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 31-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü keçirilib. Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb. Görüşün detalları barədə Şarl Mişel məlumat verib. "Bu gün biz Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən sülh müqaviləsi üzrə irəliləyiş əldə etmək üçün əsaslı işi gücləndirmək barədə razılığa gəldik və xarici işlər nazirlərini mətn layihələri üzərində işləmək üçün bir ay ərzində görüşmək barədə təlimatlandırdıq" - bu barədə Aİ Şurası Prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında Brüsseldə keçirilən görüşlə bağlı bəyanatında bildirilib:*



Detallar açıqlandı...

**Azər Hüseynov, politoloq:**

- Avropa İttifaqının vasitəçiliyi ilə keçirilən görüşlər diplomatik vasitələrin şaxələndirilməsi baxımından vacibdir. Azərbaycan bununla Rusiyaya mesaj verir ki, prosesləri diplomatik inhisarında tutması getdikcə çətin olacaq. Avropa İttifaqı da Azərbaycanla Ermənistanın arasında vasitəçi olmaqla yenə Rusiyaya mesaj verir ki, onun 200 illik təsir dairəsinə daxil ola bilər. Ermənistana gəldikdə isə, bu ölkədə iki qanad bir-biri ilə mübarizə aparır. Biri yeni siyasi qanaddır, ikincisi, 30 illik prorus hərbi-siyasi bürokratiyadır. Biz həm də burada diplomatik əlçatanlığımızı dünyaya göstəririk. Bu məsələnin həlli üçün Azərbaycanın hərbi gücünün artırılması, Türkiyə ilə ittifaqın dərinləşməsi, Rusiyaya diplomatik təsir imkanlarının artırılması, İranın təsirinin azaldılması üçün müsəlman dünyası ilə inteqrasiyanın dərinləşdirilməsi, Ermənistanın isə hücum silahlarından məhrum edilməsi lazımdır.

"Biz humanitar məsələlər, o cümlədən minalardan təmizlənmə, saxlanılanlar və itkin düşənlərin taleyi ilə bağlı ətraflı müzakirə apardıq". Aİ Prezidentinin Azərbaycan tərəfinin diqqətinə erməni saxlanılanların azad edilməsinin vacibliyini çatdırdığı qeyd olunub. Bildirilib ki, sərhədlərin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə təminatında irəliləyiş barədə bütün məqamlar nəzərdən keçirilib. Razılığa gəlinib ki, sərhədlərin delimitasiyasl üzrə Komissiyalarının növbəti iclası noyabrda Brüsseldə keçirilsin.

"Biz nəqliyyat əlaqələrinin blokdan çıxarılması üsulları ilə bağlı müzakirələrin proqresini nəzərdən keçirdik. Bütün bu müzakirələrlə yanaşı vurğulamaq istərdim ki, hər iki tərəfin xalqların əlaqəsi və onları uzunmüddətli davamlı sülhə hazırlamaq vacibdir" - bəyanatda bildirilib: "İctimai mesajlar bu baxımdan vacibdir - belə həssas bir vəziyyətdə ictimaiyyətdə deyilən hər bir söz açıq şəkildə qarşı tərəf tərəfindən dinlənilir və diqqətə alınır. Aİ uzunmüddətli davamlı sülhə doğru dəstəyini daha da gücləndirməyə hazırdır. Aİ həm də hər iki ölkənin və onların əhalisinin rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə davam edəcək. Biz noyabrın sonuna qədər bu formatda yenidən görüşməyə razılaşdıq".

> "
>
> *Avropa İttifaqının vasitəçiliyi ilə keçirilən görüşlər diplomatik vasitələrin şaxələndirilməsi baxımından vacibdir*
>
> *Sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizi, erməni silahlı qalıqlarının çıxarılması, sülh müqaviləsinin bağlanması istiqamətində müsbət irəliləyiş ola bilər*

Avropa İttifaqının vasitəçilik təşəbbüsü ilə bağlı növbəti danışıqlarla əlaqədar rəsmi Bakıdan artıq ilkin reaksiya səsləndirilib.

■ **"Biz prezident Şarl Mişelin rolunu yüksək qiymətləndiririk". Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.** "Biz Avropa İttifaqının Prezidenti Şarl Mişelin komandasının Ermənistan və Azərbaycan arasında ikitərəfli sülh müqaviləsi danışıqlarına və dövlətlərarası münasibətlərin normallaşmasına kömək etməsini yüksək qiymətləndiririk. Prezident İlham Əliyev bununla bağlı Azərbaycanın mövqeyini dəfələrlə bəyan edib", - deyə Hikmət Hacıyev bildirib.

Brüssel danışıqları ilə əlaqədar Azərbaycan və Ermənistan arasında əsas vasitəçilərdən olan Rusiyanın da mövqeyi özünü çox gözlətməyib.

"Rusiya Bakı və İrəvanla birlikdə diqqətini ali səviyyədə üçtərəfli razılaşmaların bütün bəndlərinin həllinə yönəldib. Razılaşdırılmış üçtərəfli format çərçivəsində görülən müvafiq işlər predmetli xarakter daşıyır və ardıcıl olaraq inkişaf edir. Avqustun 30-da Moskvada ölkəmizin məşvərətçi yardımı ilə Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası ilə bağlı komissiyanın görüşü keçirilib. O ki qaldı Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinin mətninin hazırlanması ilə bağlı Avropa İttifaqının vasitəçiliyi ilə işçi qrupun yaradılması planı haqqında informasiyaya, bu barədə Azərbaycandan və Ermənistandan olan tərəfdaşlarımızdan bizə hansısa məlumat daxil olmayıb".

**Vüqar Dadaşov, politoloq:**

- "Qisas" əməliyyatından sonra Brüsseldə Ermənistan Baş naziri Nikol Paşinyanın və Azərbaycan Prezidenti İlham Əliyev görüşünün səmərəli olacağına şübhə yoxdur. Sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizi, erməni silahlı qalıqlarının çıxarılması, sülh müqaviləsinin bağlanması istiqamətində müsbət irəliləyiş ola bilər. Azərbaycan dövlətinin siyasi və hərbi iradəsi qarşısında bu gün nə ABŞ və Fransanın Azərbaycandakı səfirlərinin Şuşaya səfərdən imtina etməsi, nə də İran rəsmlərinin çıxışları bir işə yaramır və təbii ki, Azərbaycanı qarşısına qoyduğu məqsədə çatmağa mane ola bilməz. 44 günlük müharibədən öncə Ermənistan Azərbaycana qarşı güc nümayiş etdirərək "yeni müharibə, yeni ərazilər" tezisi ilə bizi hədələyirdi. Sonu isə məlumdur.

■ **Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. Zaxarova ümumilikdə, Avropa İttifaqının Cənubi Qafqazda fəallığının geosiyasi ambisiyalarla müəyyənləşdiyini gördüklərini bildirib:** "Fikrimizcə, Aİ-nin real istəyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına heç bir aidiyyəti yoxdur. Deyərdim ki, bu, avropalıların "psevdo təşəbbüsü"dür. Bunlar daha çox utanmadan vasitəçiliyi özününküləşdirməyə bənzəyir, hansı ki, bunun altında heç nə yoxdur. Biz vasitəçi kimi işləyirik və bu iş konkret nəticələr verir, müvafiq olaraq tərəflər də bunu qiymətləndirir. Kimsə vasitəçi olmadan özünü vasitəçi kimi qələmə verirsə, görünür, onlar heç nə təklif etmək iqtidarında deyillər, lakin burada da özlərinin iştirakını göstərmək istəyirlər. Ümumiyyətlə, belə bir təəssürat var ki, Brüssel diplomatiya vərdişlərini itirib".

✍ *Azad Əliyev*

MÜSAHİB

## "Növbəti uğurlarımızı Xocalıda, Xankəndidə əldə edəcəyik..."



**Fəzail İbrahimli,**
Millli Məclisin sədr müavini

*Nəhayət, Laçın şəhəri, Sus, Zabux kəndləri Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Ermənistanda olan bir çox qruplar isə Laçından çıxmalarına görə hay-küy qaldırıb etiraz aksiyaları keçirməklə öz mənfur məqsədlərini həyata keçirməkdən əl çəkmirlər. Azərbaycanın mövqeyi bəllidir və növbəti addım erməni silahlı qüvvələrinin zərərsizləşdirilməsi və ərazilərimizdən çıxarılması ilə bağlı olacaq. Hazırda Laçında vəziyyət hansı istiqamətdə inkişaf edir?*

*Bu 200 ildən artıq ayaq tutub yeriyən böyük "Ermənistan ideologiyası"nın puça çıxması deməkdir*

▸▸ Səh. 2

MÜSAHİB



**Sərdar Cəlaloğlu,**
ADP sədri

"

■ Laçının Azərbaycanın nəzarətinə qayıtması ilə faktiki olaraq Azərbaycan torpaqlarının Ermənistan-Rusiya tərəfindən işğalı başa çatmışdır

■ "Artsaxın 100 illiyi" məsələsi Azərbaycanın suverenliyi əleyhinə yönəlmiş bir kampaniyadır

■ Rusiya və Amerikanın Ermənistan üzərində apardığı oyunlar erməni xalqının, erməni dövlətinin taleyinə mənfi təsir edir

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...



Kəlbəcərdə "Yaşa, doğma Azərbaycan!" konserti

GÜNÜN SİTATI

"

*Aİ Ukraynanın işğal olunmuş ərazilərində Rusiya tərəfindən paylanılan pasportları tanımayacaq*

"



**Cozep Borrell,**
Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi

KARİKATURA



Dünyada bahalaşma davam edir...

"

## Yeni Laçın yolu istifadəyə verildi

**Rəşad Bayramov,**
politoloq

Bu gün Laçında alternativ yola keçidin təmin olunması Azərbaycana bir çox üstünlüklər verir.

▸▸ Səh. 2

STATİSTİKA



■ **Bu ilin yanvar-iyul aylarında "Azərkosmos" tərəfindən dünyanın 35 ölkəsinə 15,1 mln. ABŞ dolları dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib.**

2021-ci ilin müvafiq göstəricisi ilə müqayisədə peyk operatorunun əldə etdiyi gəlir 13,6 milyon dollar və ya 47% azalıb. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 83%-ni təşkil edib. 2022-ci ilin iyul ayında isə "Azərkosmos" dünyanın 30 ölkəsinə 2,1 mln. dollar dəyərində xidmət ixrac edib.



▸▸ Səh. 7

## 3890 - taleyi naməlum Azərbaycan vətəndaşları

**XƏBƏR LENTİ**

# Kəmaləddin Heydərov müşavirə keçirdi




**Fövqəladə Hallar Nazirliyində nazir general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə müşavirə keçirilib.**

Nazirin birinci müavini general-leytenant Rəfail Mirzəyev və Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarının rəhbər heyətinin iştirak etdiyi müşavirə FHN-in maddi-texniki təchizatı və pilot layihə kimi hazırlanmış fövqəladə halların intellektual idarəetmə sisteminin tətbiqi ilə bağlı məsələlərin müzakirəsinə həsr olunub.

Müşavirədə çıxış edən nazir Kəmaləddin Heydərov qeyd edib ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ən müasir texnika və avadanlıqlarla təchiz olunmuş Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının günün tələbinə və texnologiyaların inkişafı dinamikasına uyğun olaraq daim yenilənməsi həyata keçirilir. Məhz bunun sayəsində FHN baş verən istənilən fövqəladə hadisə ilə uğurla mübarizə aparır.

Daha sonra nazir bildirib ki, Nazirliyin maddi-texniki təchizatının yenilənməsi üzərində işlər davam etdirilməli, habelə texnika və avadanlıqlara, o cümlədən yanğınsöndürmə və xilasetmə texnikalarına vaxtlı-vaxtında texniki qulluğun göstərilməsi məsələləri bundan sonra da daim diqqət mərkəzində saxlanılmalıdır.

Müasir texnologiyalardan iş prosesində istifadənin vacibliyinə toxunan nazir xüsusilə fövqəladə halların qarşısının vaxtında alınması və nəticələrinin çevik aradan qaldırılması istiqamətində ən son sistemlərin, o cümlədən rabitə və fövqəladə halların intellektual idarəetmə sistemlərinin tətbiqinin əhəmiyyətini qeyd edib.

Sonra fövqəladə halların intellektual idarəetmə sisteminin təqdimatı edilib. Bildirilib ki, bu sistem FHN-in qurumları arasında birgə fəaliyyətin daha yaxşı koordinasiya edilməsi və qüvvələrin daha effektli tətbiqi üçün nəzərdə tutulub. Geniş imkanlara malik bu sistem xüsusi və ən son nəsil müşahidə kameralarının köməkliyi ilə fövqəladə hal rayonunun real vaxt rejimində anında nəzarətə götürülməsi və qüvvələrin vaxt itirmədən çevik və səmərəli idarə edilməsinə imkan yaradacaq.

Bu sistemin əvvəlcə pilot layihə kimi konkret bir rayonda tətbiqi nəzərdə tutulur. Məhz bu pilot layihənin tətbiqi zamanı sistemin bütün xüsusiyyətləri praktiki olaraq real şəraitdə təhlil ediləcək, o cümlədən mümkün çatışmazlıqlar aradan qaldırılacaq və bundan sonra onun bütün ölkə üzrə tətbiqi ilə bağlı qərar veriləcək. Təqdim olunan fövqəladə halların intellektual idarəetmə sistemini yüksək qiymətləndirən nazir Kəmaləddin Heydərov onun pilot layihə olaraq qısa müddətdə tətbiqi ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# "Növbəti uğurlarımızı Xocalıda, Xankəndidə əldə edəcəyik..."

***Nəhayət, Laçın şəhəri, Sus, Zabux kəndləri Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Ermənistanda olan bir çox qruplar isə Laçından çıxmalarına görə hay-küy qaldırıb etiraz aksiyaları keçirməklə öz mənfur məqsədlərini həyata keçirməkdən əl çəkmirlər. Azərbaycanın mövqeyi bəllidr və növbəti addım erməni silahlı qüvvələrinin zərərsizləşdirilməsi və ərazilərimizdən çıxarılması ilə bağlı olacaq. Hazırda Laçında vəziyyət hansı istiqamətdə inkişaf edir?***

## Müsahib

■ **Mövcud reallıq və perspektivlərlə bağlı hafta.az-a açıqlama verən Millli Məclisin sədr müavini Fəzail İbrahimli bildirib ki, Laçının ermənilərdən boşaldılması və Azərbaycanın nəzarətinə keçməsi İkinci Qarabağ savaşındakı qələbəmizin növbəti mərhələsidir.** Onun sözlərinə görə, bu gün Laçının erməni işğalçılarından boşaldılmasını ayrıca bir hadisə kimi təhlil etmək yox, qələbəni bilavasitə addım-addım şərtləndirən və hazırda işğal altında olan torpaqların azad olunmasına doğru gedilən yolun tərkib hissələrindən biri kimi yanaşılmalıdır.

F.İbrahimli bildirib ki, bu gün Laçın istiqamətində baş verən proseslər və qarşıdakı perspektivlər əslində 10 noyabr sazişində bütün müddüəları özündə əks etdirmişdi.

"Təbii ki, Ermənistan tərəfi üçtərəfli sazişə əsasən üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdə cavabdeh idi. Görünən odur ki, 2020-ci ildən başlayaraq keçən 2 il ərzində müqavilənin şərtlərini yerinə yetirməkdən qaçır və bütün variantlardan istifadə edərək prosesi ləngidir. Ermənistan ıxtiyarı özündə olan dövlət deyil, Rusiyanın forpostudur və digər dövlətlərdən də mənfi impulslar alaraq öz mənfurluğunu bir qədər də artırır. Ona görə də bölgədə sülhün bərqərar olması Ermənistan tərəfindən yubadılır. Heç şübhəsiz ki, ABŞ və Fransanın Şuşada keçirilən konfransda iştirakdan imtina etməsi də bu müstəvidə müəyyən nüansları biruzə verdi. Bu cür yanaşmalar regionla bağlı sülhün bərqərar olunmasında zərərli amillərdən olsa da heç bir təsirə malik deyil, olmayacaq. Biz Qərbin, Fransanın bu 30 il ərzində Azərbaycanın haqq səsinə hansı reaksiyanı, hansı ikili mövqedən çıxış etdiyini bilirik. Təbii ki, artıq Azərbaycanın belə ikili standartlı yanaşmalara öz cavabını gecikdirmir. Azərbaycan haqlı olan tərəfdir və öz torpaqlarını işğaldan azad etmək onun beynəlxalq hüquqla təsbit olunmuş hüququdur".



**Fəzail İbrahimli,**
Millli Məclisin sədr müavini

F.İbrahimli üçtərəfli sazişə əsasən Azərbaycan tərəfinin götürdüyü öhdəlikləri ardıcıl həyata keçirdiyini qeyd edib. Deputat Azərbaycanın alternativ yolun çəkilməsi ilə bağlı götürdüyü öhdəliyi vaxtından qabaq yerinə yetirməsini regiona sülhün gətirilməsi üçün atılan mühüm addım kimi önə çəkib: "Azərbaycanın sözündə bütöv, əqidəsində iradəli dediyi sözün arxasında duran dövlət başçısı var və mövcud reallıq onun əldə etdiyi uğurlardan biridir. Əgər ermənilər dövlət başçımızın proseslərə laqeyd münasibətini görsəydilər, heç vaxt Laçını boşaltmazdılar. Eyni zamanda, "Qisas" əməliyyatı zamanı növbəti bir zərbəni görən erməni tərəfi çəkindilər, başa düşdülər ki, könüllü çıxmasalar, zorla da olsa bu torpaqları azad edəcəklər. Ataların bir sözü var: ilan ulduz görməsə canı çıxmaz. Ermənilər də ulduzu gördü və təbii ki, buradan getməli oldular".

F.İbrahimli hesab edir ki, son olaraq Laçının ermənilərdən təmizlənməsi sadəcə olaraq bir rayonun boşaldılması deyil, bu 200 ildən artıq ayaq tutub yeriyən böyük "Ermənistan ideologiyası"nın puça çıxması, yalanlarının bir daha sübut olunduğu tarixdir.

Deputat belə bir ərəfədə Ermənistanda baş qaldıran etiraz aksiyalarının Azərbaycanda gedən proseslərin qarşısında heç bir əhəmiyyət daşımadığını vurğulayıb. Onun sözlərinə görə, bu gün Ermənistanın daxilində müxtəlif şaxələr, istiqamətlər var ki, fərqli siyasi mövqelərlə ortalığa çıxırlar.

"Görünən odur ki, hakimiyyətdə kifayət qədər gücü olan Sarkisyan, Köçəryan caynaqları özlərini sığortalamaq və əldə etdiklərini itirmək istəmirlər. Şimaldan, Qərbdən, Cənubdan olan yeni qüvvələr, Paşinyanın imza atdığı sənədə uyğun olaraq addım atmasına maneələr törədir.

Paşinyanı heç də demokratik, sülhsevər bir siyasətçi kimi təqdim etmək fikrində deyiləm. Necə deyərlər; ilanın ağına da lənət, qarasına da... Paşinyan anlayır ki, bu prosesdə geriyə addım ata bilməz və öhdəliklərini yerinə yetirməyə məcburdur".

F.İbrahimli regionda maraqlı olan güclərin hələ bu gün də öz imperialist siyasətlərindən, maraqlarından əl çəkməyərək Azərbaycanın haqq yoluna çıxmaq istəyini önə çəkib.

> *Bu 200 ildən artıq ayaq tutub yeriyən böyük "Ermənistan ideologiyası"nın puça çıxması deməkdir*

"Maneə yaratmaq istəsələr də, Azərbaycan dövlət rəhbərinin qətiyyətli mövqeyi, xalqın əzmi, düzgün strategiya və aparılan düzgün siyasət düşməni geri otuzdurdu. Bunun nəticəsi olaraq Azərbaycan, xüsusilə də Laçın camaatı dünyanın ən xoşbəxt günlərini yaşayır. Qoy Azərbaycan Ordusu güclü olsun, Azərbayan dövlət başçısının apardığı o siyasi xətt dünya tərəfindən dəstəklənsin və növbəti ərazilərimiz düşmən tapdağından azad olunsun".

Deputat eyni zamanda qeyd edib ki, bu yeni yolun aqibəti sülhməramlıların fəaliyyəti müstəvisində yenə də mübahisələndirsə də, Azərbaycanın qarşıdakı hədəfləri birmənalı olaraq qaranlıq məqamlara işıq sala bilir.

"Cənab Prezidentin bir ifadəsi var: nəyi nə vaxt və necə etməyi mən çox yaxşı bilirəm". Düşünürəm, bu məsələləri dövət başçısı kifayət qədər dərindən bilir və lazımi addımlar atılacaq. İnanıram, sonda uğur bizim olacaq, Ermənistan...

Əminəm ki, növbəti uğurlarımızı Xocalıda, Xankəndində əldə edəcəyik. Paşinyan da bunu bilir. Xaricdəki qüvvələr hələ ki, buna imkan vermək istəmirlər. Bütün hallarda biz qananı sözlə, qanmayanı bizlə başa salacağıq. 30 ildə çəkdiyimiz istirablar çıxır. 200 il addım-addım bizi izləyən Ermənistan ideologiyasının darmadağın etdik".

✍ *Tahirə Qafarlı*

# Üçtərəfli İşçi Qrup razılığa gəlmək barədə əhəmiyyətli dərəcədə irəliləyib

**Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı üçtərəfli İşçi Qrupu razılığa gəlmək barədə əhəmiyyətli dərəcədə irəliləyib. Bunu Rusiya xarici işlər naziri Sergey Lavrov iranlı həmkarı Hüseyn Əmir Abdullahyanla danışıqlarının yekunlarına dair birgə mətbuat konfransında bildirib.**

Rusiyalı nazir Cənubi Qafqazda iqtisadi, ticarət əlaqələrinin və nəqliyyat kommunikasiyalarının açılması məsələləri ilə Rusiya, Azərbaycan və Ermənistan baş naziri müavinlərinin iştirak etdiyi Üçtərəfli İşçi Qrupun məşğul olduğunu xatırladıb: "Bu İşçi Qrup Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası ilə bağlı komissiya ilə eyni zamanda ritmik çalışır. Bu günlərdə həmin qrupun növbəti təması gerçəkləşdi. İşçi Qrup razılığa gəlmək barədə əhəmiyyətli dərəcədə irəliləyib. Ümid edirəm ki, ən yaxın vaxtda razılaşmalar formalaşdırılacaq. Xüsusən vacib olan odur ki, bu iş vakumda aparılmır, təcrid olunmayıb, sıx əlaqədə aparılır", deyə Lavrov vurğulayıb.

Rusiya XİN başçısı iranlı həmkarı ilə Moskva, Bakı və Tehran arasında Rəşt-Astara dəmiryolunun bərpası ilə bağlı aparılan müzakirələrdən də danışıb: "Sentyabrda bununla bağlı profil strukturların görüşü planlaşdırılır. Mənə elə gəlir ki, bu proses praktiki planda olduqca irəliləyib".

# Yeni Laçın yolu istifadəyə verildi

## Müzakirə

***Artıq Laçın dəhlizinə alternativ yol istifadəyə verilir. Vaxtilə Azərbaycanın keçmiş Dağlıq Qarabağ bölgəsi və ətraf rayonların işğalında mühüm rol oynayan keçmiş dəhliz Azərbaycan ordusunun nəzarətinə keçib. Yeni yolun istifadəyə verilməsi və nəzarət mexanizmlərinin tətbiqində hansı yeniliklər var?***



■ **Rəşad Bayramov, politoloq:**

- Rusiya sülhməramlılarının nəzarət zonasına daxil olan Zabux, Sus kəndlərinin, o cümlədən Laçın şəhərinin Ordumuzun nəzarəti altına keçməsi sevindirici haldır. Bu hadisələrin yaşanması fonunda Ermənistanda Rusiya bayraqları ilə keçirilən etiraz aksiyaları sülhməramlılara qarşı artan narazılığın fonunda baş tutub. Anti-Rusiya mövqeyi ilə keçirilən aksiyalar təkcə Ermənistanın özündə deyil, eləcə də ayrı-ayrı ölkələrdə olan erməni lobbisi tərəfindən də təşkil olunur. İddia ondan ibarətdir ki, Rusiya sülhməramlıları "Dağlıq Qarabağ" ərazisində yerləşən ermənilərin təhlükəsizliyini təmin etmək iqtidarında deyil və rus sülhməramlıları Fransa sülhməramlıları ilə əvəz olunmalıdır.Ona görə də Rusiya Xankəndidə baş verən aksiyanı özü planlaşdırdı və Qarabağda yaşayan ermənilərlə, digər ölkələrdə yaşayan ermənilərin üz-üzə durmasını nümayiş etdirdi. Dolayısı ilə nümayiş olundu ki, Azərbaycan ərazisində yaşayan ermənilər nə Ermənistanda, nə də digər xarici ölkələrdə yaşayan erməni lobbisinin dediklərini təkrarlamır.

Bu gün Laçında alternativ yola keçidin təmin olunması Azərbaycana bir çox üstünlüklər verir. Birincisi, Laçın şəhəri nəzarətimizə keçir; ikincisi, "Laçın dəhlizi" ilə hazırda Rusiyanın alternativ yola keçəcəyi dəhliz arasında fərqlər var.

> *Bu gün Laçında alternativ yola keçidin təmin olunması Azərbaycana bir çox üstünlüklər verir*

> *Ermənilərin "böyük Ermənistan" xülyası bununla bitir*

Fərq ondan ibarətdir ki, həmin o alternativ yol bugünkü Laçın dəhlizinə nisbətdə daha yaxşı müşahidə olunur. Yəni yeni yolun ətrafında olan yüksəkliklər Azərbaycan Ordusunun nəzarətindədir və bu da həmin yolu tək dronlarla deyil, vizual olaraq daha müşahidə etmək imkanı verir. Digər tərəfdən, həmin ərazi ataş mövqeyi kimi daha əlverişlidir. Belə ki, Qarabağdakı separatçılar, yaxud Ermənistandakı revanşist qüvvələr bizim ərazilərdə təxribat törədəcəyi halda oradakı obyekti məhv etmək daha asan olacaq.

Rusiya sülhməramlı generalının yeni yolun indiki "Laçın dəhlizi" ilə eyni statusu daşıyacağı ilə bağlı çıxışlarında qeyri-adi heç nə yoxdur. Üçtərəfli bəyanatın 6-cı bəndinə görə tərəflərin razılığında "Ermənistanla əlaqəni təmin edən yeni hərəkət marşrutu"ndan söhbət gedirdi. Yeni yol, Laçın dəhlizinin yeni hərəkət marşrutudur.

Ermənistan üçtərəfli sazişə əsasən üzərinə götürdüyü öhtəliklərdən, yeni Naxçıvanla əlaqəni təmin edəcək Zəngəzur dəhlizinin açılmasından imtina edəcəksə, o zaman Azərbaycan müvafiq olaraq Rusiya sülhməramlılarının nəzarətində olan alternativ yolun bağlanmasına qərar verə bilər. İndiki halda alternativ yol elə Laçın dəhlizi ilə eyni status daşıyır. Bögədə vəziyyətin bundansonrakı inkişafı Ermənistan, Rusiya, Avropa İttifaqının fəaliyyətindən asılı olacaq. Tərəflər Ermənistandan ərazilərimizdən erməni hərbi birləşmələrinin çıxarılması, dəhlizin açılması və digər öhdəliklərin yerinə yetirilməsini tələb edib ona təzyir edilməsə, nəticə etibarilə sülh sazişi imzalanacaq. Yox, əgər Rusiya, Avropa İttifaqı təzyiq vasitələrindən istifadə etməyib prosesin uzanmasına şərait yaradacaqsa bu növbəti hərbi əməliyyatlara rəvac verəcək".

■ **Teymur Qasımlı, siyasi şərhçi**

- Laçının Azərbaycan ordusunun nəzarətinə keçməsi 10 Noyabr sazişinə əsasən Ermənistan və Rusiyanın götürdüyü öhdəliklərdən biridir. Azərbaycan dövləti bu sazişə uyğun olaraq öz bütövlüyü çərçivəsində işlər aparıb. Məlumdur ki, Ermənistan Azərbaycanın sülh çağırışlarına hərbi təxribatlarla cavab verdi. Son baş verən təxribatda şəhidlərimiz oldu. Azərbaycan "Qisas" əməliyyatı apardı və bu, ermənilərin alternativ yolun çəkilişini sürətləndirdi. Beləliklə, Laçın Azərbaycanın nəzarətinə keçdi. Azərbaycanın Ermənistanla böyük problemləri qalıb:

Əsgəran, Xocalı, Ağdərə, Xankəndidə olan mövcud problemlər ərazi bütövlüyümüz çərçivəsində həll olunmalıdır. Bizim hələ ki, qaytarılmayan kəndlər var. Bütün bunlarla yanaşı, Laçının nəzarətimizə götürülməsi çox önəmlidir. Laçınla bərabər strateji olaraq Xocalı, Xankəndi nəzarətimizə altına keçir. Ermənilərin böyük Ermənistan xülyası bununla bitir. "Qisas" əməliyyatında götürdüyümüz yüksəkliklər, Xankəndi, Kəlbəcər, Xocalını nəzarətdə saxlamağımız üçün mühüm əhəmiyyət kəsb edir və böyük uğurdur. Bu prosesi Ali Baş Komandanın xarici siyasətdə apardığı işlərin uğurları kimi dəyərləndirmək olar".

✍ *Tahirə Qafarlı*

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

**Təsisçi və baş redaktor:**
**Sevinc Seyidova**

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

**Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000**

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

Müsahib

# ABŞ bilir ki, Azərbaycan Türkiyədən ayrılmayacaq

**_Məlum olduğu kimi, region geosiyasi, strateji, iqtisadi mənzərəsi gərginliyi ilə müşahidə olunan mühüm hadisələrə şahidlik edir. Region nəyə şahidlik edir və Azərbaycan ona qarşı dayanan təsirlərə, bəhanələrə qarşı necə dayanır? "Həftə içi" qəzetinə müsahibə verən ADP sədri Sərdar Cəlaloğlu maraqlı məqamlara toxunub._**



Sərdar Cəlaloğlu,
ADP sədri

**_- Beynəlxalq güclərin Cənubi Qafqazda maraqlarını təmin etmək cəhdləri özünü nədə göstərir?_**

- Azərbaycan-Ermənistan münasibətlərinə dünyada gedən proseslərin kontekstindən kənarda baxsaq, hadisələrin mahiyyətinə düzgün qiymət verə bilmərik. Asiyada, Avropada, Cənubi Qafqazda müəyyən bir gərginlik var. Son vaxtlar İsrail-İran, İran-Azərbaycan arasında söz səviyyəsində atışmalar gedir. Eləcə də Tayvan ətrafında ciddi gərginlik var. Hindistan, Yaponiya, Amerika və Çin arasında da bu gərginlik yaşanır. Avropada Ukrayna ilə Rusiya arasında aktiv müharibə gedir. Bir çox bölgələrdə gərginliklərin meydana çıxmasını indidən proqnozlaşdıra bilərik. Bütün bunların hamısının yeganə səbəbi dünyada qlobal iqtisadi böhranın davam etməsi, qlobal siyasi böhranın yetişməsinin əlamətidir.

Dünyanı uzun müddət sabitlikdə saxlayan dünya nizamı II Cahan savaşının nəticələri əsasında müəyyən olunmuşdu. İkiqütblü dünya formalaşmışdı, SSRİ sosializm cəbhəsinin avanqard bir tərəfi kimi bir qütbü təşkil edirdi. Amerika kapitalist dünyasının avanqardı kimi digər qütbü təşkil edirdi. O cümlədən Varşava müqaviləsi bağlanmışdı, NATO yaradılmışdı. Yəni dünyada bir tarazlıq yaranmışdı. İri dövlətlər özləri də bu və ya digər şəkildə hansısa qütblərdən birinin yanında idi.

İkinci Dünya müharibəsindən sonra keçən 50 il ərzində iqtisadi, siyasi münasibətlər, xalqların demoqrafik dəyişmələri, mədəni inkişafı elə bir səviyyəyə gəlib çıxdı ki, artıq dünya II Cahan Savaşının müəyyən etdiyi nizamla həll olunmadı. Ən vacib məqamlardan biri SSRİ-nin dağılması ilə sosializmi əhatə edən regionun bütünlüklə məhv olması və iki qütbdən birinin yox olması idi. ABŞ məcburən təkqütblü dünyanı idarə etməyə başladı.

Amerikanın resursları bütün dünyaya nəzarət etməyə imkan vermirdi. Əvvəllər dünyanın yarısına SSRİ, yarısına ABŞ nəzarət edirdisə, SSRİ yox olandan sonra, ABŞ ikiqat yükləndi. Birqütblü dünya kimi dünyanın nizamını təmin edə bilmədi. Beynəlxalq hüquqa zidd olaraq dövlətlər birbirlərinin ərazilərini işğal etməyə başladılar, terror, daxili işlərə müdaxilə, qlobal cinayət inkişaf etdi. İqtisadi məkanın genişlənməsi nəticəsində qlobal iqtisadi böhran meydana çıxdı və sair. Bütün bunlar dünyada yeni bir nizamın yaradılması zərurətini meydana çıxardı.

Baş verən hadisələr yeni dünya nizamının yaradılması və qütblərin müəyyən edilməsində mübarizədir. Rusiya birmənalı şəkildə iddia edir ki, dünyada bir qütb - Rusiya olmalıdır; Türkiyə bütün davranışları ilə özünün yeni dünya nizamında müstəqil bir qütb olması mesajlarını verir. Rusiya Ukraynaya hücum etməklə, keçmiş SSRİ respublikalarına hədə-qorxu gəlməklə mesajını verir. Avropa ölkələri də Avropa Birliyi şəklində bir qütb yaratmaq iddiasındadır. Bu prosesdə Çin də var ki, əhalisinin sayına, ərazisinə görə hegemon dövlət sayılır. Çinin xarici siyasətində başqa ölkələr kimi, digər ölkələrin daxili işlərinə qarışmaq, intervensiya etmək, daxili ideologiyasını yaymaq məqsədi yoxdur. Əksinə, Çinin imperiyalar dövründən bu günə qədər fəlsəfəsi ondan ibarətdir ki, dünyada elə bir mədəniyyət, elə siyasi, iqtisadi yüksəliş ortaya qoymalıdırlar ki, bütün dünya gəlib qapısında ona möhtac olsun. Məsələn, Rusiya özü məhv olub, dilənçi günündədir, mədəni səviyyəsi aşağıdır, amma dünyaya ağalıq iddiasındadır. Belə bir vəziyyətdə müxtəlif bölgələrdə potensial qütblər arasında mübarizə gedir. Bunun biri də Cənubi Qafqazla bağlıdır. Əgər dünya xəritəsinə baxsaq, Cənubi Qafqaz Asiya ilə Avropanın arasında, eləcə də Şimalla Cənub arasında yeganə əlverişli yoldur. Bu baxımdan, Cənubi Qafqaz tarixən imperiyalar, sərkərdələr üçün önəmli əhəmiyyət kəsb edib. Azərbaycan-Ermənistan məsələsinə də bu kontekstdən baxmalıyıq. Məsələn, Türkiyə Azərbaycanla bir yerdədir və Cənubi Qafqaza Azərbaycan vasitəsilə gələcək dünya qütbü kimi öz təsir dairəsini yaratmaq istəyir. Ermənistan məsələsində Rusiya ilə Amerika rəqabət aparır. Ermənistan Amerika ilə Rusiya arasında vargəl edir. Zatən Gürcüstan birmənalı şəkildə Avropa Birliyinin təsir dairəsindədir. Belə bir vəziyyətdə Ermənistanın maraqları baxımından istiqamətində ABŞ, Rusiya zaman-zaman beynəlxalq hüquqa zidd olaraq Ermənistanın mövqeyini müdafiə edirlər. ABŞ səfirinin Şuşaya getməməsinin səbəbi də Ermənistanı öz təsir dairəsinə almaqla bağlıdır. ABŞ Ermənistan vasitəsilə Cənubi Qafqazda özünə müəyyən məkanda plasdarm yaratmaq məqsədi güdür. Burada da Rusiya İranla rəqabət vəziyyətindədir. Baxın, İranın Zəngəzur dəhlizi ilə bağlı verdiyi bəyanat, Ermənistanla "qardaşlıq" bəyanatları ermənilərə məhəbbətdən doğmur. İran da Cənubi Qafqazda özünə müəyyən bir əlyeri qoymaq istəyir. Rusiya da bunu görür. Ona görə də Rusiya son vaxtlar Ermənistanla İran sərhədini gücləndirdi. Orada hərbi bazalar tikdi, postlar qoydu. Amerika isə hələlik Ermənistanla, İranla bağlı lazım olan ciddi bir iş görə bilmir.

Amerikanın ən böyük səfirliklərindən biri Ermənistandadır. Ermənistan ərazisinin, əhalisinin sayına, iqtisadi imkanlarına, geosiyasi durumuna görə Azərbaycandan 3 dəfə kiçikdir. Sual olunur: Amerika Azərbaycanda geosiyasi, geoiqtisadi maraqları ola-ola niyə Ermənistanı müdafiə edir?! Amerika bilir ki, Azərbaycan heç vaxt Türkiyədən ayrılmayacaq, ona görə də Cənubi Qafqazda özünün iştirakını təmin etmək üçün ona bir müttəfiq lazımdır. Nə yazıqlar olsun ki, Ermənistan da bu müttəfiq rolunda çıxış edir. Paşinyanın apardığı siyasət də bununla bağlıdır. Faktiki olaraq Ermənistanın daxilində gedən iqtidar-müxalifət münasibətləri Rusiya - Amerika arasında Ermənistanı ələ keçirmək uğrunda aparılan mübarizənin bir şəklidir.

> *Rusiya və Amerikanın Ermənistan üzərində apardığı oyunlar erməni xalqının, erməni dövlətinin taleyinə mənfi təsir edir*

> *Laçının Azərbaycanın nəzarətinə qayıtması ilə faktiki olaraq Azərbaycan torpaqlarının Ermənistan-Rusiya tərəfindən işğalı başa çatmışdır*

> *"Artsaxın 100 illiyi" məsələsi Azərbaycanın suverenliyi əleyhinə yönəlmiş bir kampaniyadır*

**_- Böyük güclərin Qafqaz uğrunda gedən mübarizəsinə baxmayaraq, Azərbaycanın daha çox üstünlüyü qazanması nə ilə bağlıdır?_**

- Bizim regionda üstünlük qazanmağımız dolayısı ilə Türkiyənin burada üstünlük qazanması deməkdir. Yeri gəldikdə Avropanı, Amerikanı da Türkiyədən asılı vəziyyətə salır. Bu layihələrin işlənməsində Avropa, Amerika nə qədər maraql olsa da, siyasi nəticələrin yüksək olmasında maraqlı deyillər. Zəngəzur, Şuşa, Azərbaycanın suverenliyi məsələsi siyasi məsələ olduğuna görə, Amerika Ermənistanın yanındadır. ABŞ iqtisadi, geosiyasi məsələlərdə Azərbaycanın yanındadır. İndi Azərbaycan Türkiyədən imtina edib Amerikanın dostluğunu qəbul etsəydi, zatən bu mümkün də deyil, onda Ermənistan Amerikanı maraqlandırmazdı. Rusiya və Amerikanın Ermənistan üzərində apardığı oyunlar erməni xalqının, erməni dövlətinin taleyinə mənfi təsir edir. ABŞ səfirinin Şuşaya getməməsi erməniləri üçün xoşniyyətli jest hesab oluna bilər. Bir tərəfdən də səfir deyir ki, Azərbaycanın müstəqilliyinin və suverenliyinin müdafiə olunmasında Amerikadan güclü müttəfiq yoxdur. Belədirsə, Şuşa Azərbaycanın suverenliyinə qaytarılıb. Gərək hamıdan qabaq Amerika səfiri ora gedəydi. Erməni lobbisini narahat etməmək, eləcə də Ermənistanı Rusiyanın təsirindən qurtarmaq üçün ermənilərin xoşuna gələn addım atıb. Bunun heç bir siyasi nəticəsi yoxdur,narahat olmağa dəyməz. Ermənistanda isə Amerikanın tərəfdarları Rusiyanın əlini zəiflədib, Amerikanı gücləndirmək üçün belə bir arqumentdən istifadə edirlər ki, baxın, Rusiya Şuşaya getdi, deməli, satılıb Azərbaycana. Amerika getmədi, demək, Ermənistanın dostu odur. Ona görə də orada anti-Rusiya çıxışları güclənib. Putini, Rusiyanı təhqir edir, əvəzində Amerikanı birtərəfli qaydada təbliğ edib dəstəkləyirlər. Oyunun mahiyyəti bundan ibarətdir.

**_- "Laçın dəhlizi" yeni Laçın yolu ilə əvəzləndi. Bunu necə təhlil edərdiniz?_**

- Yolun statusu ilə dəhlizin statusu fərqlidir. Yol - Azərbaycan dövlətinin ərazisidir, yəni Xankəndi Qarabağ İqtisadi Zonasının nəzarətinə qayıdana qədər, sülhməramlı qüvvələr həmin əraziləri tərk edənə qədər, müəyyən mənada erməni qüvvələri ilə tərəflərin məsələsinin həlli başa çatanadək üçtərəfli bəyanata əsasən ruslar orada duracaqlar. Həmin yola Azərbaycan tam nəzarət edəcəkdir. Burada bizim udduğumuz nədir: əvvəlcə Ermənistanla bizim Laçın sərhədinə qədər haradasa 2-3 km qədər açıq sərhədimiz var idi. Ermənilər oradan istədikləri kimi keçə bilirdi. Bu gün o sərhəd bağlanıb. Yalnız həmin yol qədər olan məsafədə Ermənistanla sərhədimiz açıqdır. Laçın dəhlizində Azərbaycanın iştirakı yox idi. Yolda isə Azərbaycanın həm gömrük xidməti, həm də sərhəd xidməti təşkil olunacaq. Yolda həm də Rusiya sülhməramlıları dayanır. Bu isə Azərbaycan sərhədlərinin Azərbaycan dövləti tərəfindən nəzarətə götürülməsi deməkdir. Laçında 49 kvadrat-kilometr torpaq sahəmiz bizim əlimizdə deyildi. Bu da bizə qayıtdı. Orada yüzlərlə kənd, təbii ehtiyatlar, turizm üçün əlverişli şərait var. Laçının Azərbaycanın yurisdikasiyasına keçməsi ilə Xankəndi, demək olar ki, dörd tərəfdən Azərbaycanın nəzarəti ilə əhatə olunmuş şəkildədir. Azərbaycan Ordusu Xankəndi ətrafında bütün hərbi üstünlükləri nəzarətə götürüb. Həmin ərazilərdə erməni postları yoxdur. Xankəndində Ermənistan qoşunları, eləcə də dırnaqarası Artsax qoşunları yoxdur, ağır texnika yoxdur, ancaq yüngül silahlardır. Silahların da yığışdırılması ilə bağlı Azərbaycan konkret şərtlər qoymalıdır. Qısa müddətdə Xankəndinin Azərbaycanın suverenliyinə qaytarılması gündəmə gəlməlidir. Laçının Azərbaycanın nəzarətinə qayıtması ilə faktiki olaraq Azərbaycan torpaqlarının Ermənistan-Rusiya tərəfindən işğalı başa çatmışdır. İndi Azərbaycanın separatizmlə bağlı problemi qalır. Bütün danışıqlar Xankəndinin Azərbaycanın suverenliyinə qaytarılması istiqamətində aparılmalıdır. Bizim indiki vəzifəmiz bundan ibarət olmalıdır.

**_- Ermənilər sentyabrın 2-də qondarma "Artsaxın 100 illiyini" qeyd etmək üçün Xankəndidə - Azadlıq meydanına toplaşmaq barədə bəyanatlar verirlər..._**

- Əgər həmin tarixdə ermənilər Xankəndidə "Artsax"la bağlı hər hansı addım atacaqsa, Azərbaycan qoşunları Xankəndinə girməlidir. Üçtərəfli bəyanatdan sonra Putin elan etdi ki, əsas vəzifəmiz Xankəndini Azərbaycanın suverenliyinə qaytarmaqdır. "Artsaxın 100 illiyi" məsələsi Azərbaycanın suverenliyi əleyhinə yönəlmiş bir kampaniyadır. Əgər sülhməramlıların nəzarəti altında belə kampaniya keçirilərsə, Azərbaycan qoşunları Xankəndinə yeritməlidir.

✍ Tahirə Qafarlı

# ABŞ və Fransa səfirlərinin "Şuşa etirazı"

Aktual



**_Avqustun 27-də Şuşada Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidənqurulması, minalardan təmizlənməsi, münaqişədənsonrakı dövrdə şəhərsalma potensialından istifadə və beynəlxalq əməkdaşlıq imkanlarına həsr olunmuş konfrans keçirildi._**

Tədbir çərçivəsində Türkiyədə və Azərbaycanda fəaliyyət göstərən və ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, o cümlədən xarici ölkələrin səfirləri və beynəlxalq təşkilatların təmsilçiləri Şuşaya səfər etdilər. ABŞ və Fransa səfirləri dəfələrlə dəvət olunmalarına baxmayaraq, Şuşaya səfər etməkdən nümayişkaranə şəkildə imtina edirlər. Niyə? Paris və Vaşintonun bununla verdiyi mesajlar nədir? Əsl məqsədləri nədir və nəyə nail olmağa çalışırlar?

■ **Politoloq Qabil Hüseynli hafta.az-a bildirib ki, ABŞ və Fransa səfirlərinin Şuşaya səfərdən imtina etməsinin arxasında dayanan niyyətlər heç də yaxşı deyil.**

> *Biz ATƏT-in Minsk Qrupunun gorbagor olduğunu bəyan etmişik*

Onun sözlərinə görə, bu niyyətlərin önündə Qarabağın "statusu" məsələsi əsas hədəflərdən biri seçilib: "Özünün dırnaqarası missiyasını başa çatdırmış ATƏT-in Minsk Qrupunun dirçəldilməsi də önəmli yer tutur. Üstəlik, bu dövlətlər heç cür başa düşmək istəmirlər ki, bölgədə statuskvo tamamilə dəyişib, yeni siyasi konfiqurasiya formalaşıb. Bu konfiqurasiya nə bölgəyə ATƏT-in Minsk Qrupunu, nə də Qarabağda qalmış bir ovuc erməni üçün hansısa statusun verilməsi məsələlərini gündəmə gətirə bilməz. Vaxtilə 20 min əhalinin yaşadığı ərazidə indi çox az sayda erməni yaşayır. Onlar da hər hansı müstəqillik, hər hansı bir status məsələsində ciddi arqument sayıla bilməz. Bu mənada ABŞ səfiriyi nə qədər israrla söyəsə də ki, Qarabağ məsələsinin həllini hamıdan çox istəyir, yalandır. Əsində isə onlar öz məkrli niyyətləri ilə nizamlama prosesində son nöqtənin qoyulmasına əngəllər törədirlər. Bu əngəllər də bölgədəki əminəmanlığın sülhün yaradılması işinə müəyyən qədər maneə yarada bilir". Q.Hüseynli hesab edir ki, ABŞ-Fransa səfirlərinin məkrli niyyətlərindən irəli gələrək, Qarabağa səfərdən etməməsi Azərbaycanın öz hədəflərinə çatması üçün heç bir təsir göstərə bilməz, mövqeyimizə heç bir dəyişiklik gətirə bilməz. Onun sözlərinə görə, əgər ABŞ və Fransa Minsk Qrupunun həmsədrləri kimi bölgədə hər hansı imtiyazlara sahib olmaq istəyirlərsə, belə siyasət aparmaqla heç nəyə nail ola bilməyəcəklər.

"Onlar Azərbaycanda olanqalan hörmətlərini də tamamən itirəcəklər. Azərbaycan xalqının nifrətini qazanıblar və belə addımlarla daha da əks münasibətlə qarşılanacaqlar. Belə bir deyim var: yaman siyasət Bağdaddan dönər. ABŞ-Fransa yanlış siyasət aparırlar və bununla da öz hədəflərinə çata bilməyəcəklər".

Politoloq bildirib ki, biz ATƏT-in Minsk Qrupunun gorbagor olduğunu bəyan etmişik. Azərbaycanın razılığı olmadan Minsk Qrupunun ortaya çıxması mümkün deyil. Azərbaycan bu istiqamətdə mövqeyini ortaya qoyub və bunu təkrarlamağa ciddi bir hacət yoxdur.

■ **Siyasi şərhçi Aytən Qurbanova bildirir ki, əslində, rəsmi Paris və Vaşinqtonun verdiyi və ya vermək istədiyi mesaj bizim üçün heç də aydın təsəvvür yaratmır.**

"Bir tərəfdən Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət etdiklərini iddia edirlər, digər tərəfdən, işğaldan azad olunmuş bölgələrə, xüsusilə Şuşa şəhərinə səfər etməkdən imtina edirlər. Bu, nə deməkdir?! Azərbaycanın ərazi bütövlüyünə hörmət edirlərsə, bəs tarixi Azərbaycan torpağı olan Şuşa şəhərinin kimə məxsus olduğunu bilmirlər?! Təəssüf ki, bu addımları ilə onlar illərdir Azərbaycanın haqq mübarizəsinə qarşı təbliğ olunan ikili standartın təzahürlərini növbəti dəfə nümayiş etdirmiş olurlar. Digər tərəfdən, uzun illər münaqişənin həll olunmasında əsas vasitəçilərdən hesab edilən bu iki dövlətin Minsk formatı çərçivəsində danışıqlar prosesini məqsədli şəkildə uzatması məsələsi də artıq sübuta ehtiyacı olmayan faktdır".

■ **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti Mətin Məmmədli bildirir ki, ABŞ və Fransanın belə bir münasibət nümayiş etdirməsinin əsas səbəbi bu dövlətlərin postmünaqişə dövrünün rerallıqlarını tam qəbul etməməsi ilə bağlıdır.** Onun sözlərinə görə, bu dövlətlər hələ də hesab edirlər ki, Qarabağda "status" məsələsi müzakirə olunmalıdır, Minsk Qrupu fəaliyyətini davam etməlidir.

Siyasi ekspert digər səbəbin həmin ölkələrdə fəaliyyət göstərən erməni lobbi qruplarının fəaliyyəti ilə bağlı olduğunu önə çəkib: "Fransa və Birləşmiş Ştatlar erməni lobbisinin üstünlük təşkil etdiyi ölkələrdir. ABŞ və Fransanın belə bir mövqe nümayiş etdirməsi Azərbaycanla bu ölkələr arasında münasibətlərə mənfi təsir göstərir. Hesab edirəm, hə min dövlətlər bu məqamı nəzərə almalıdırlar. Belə davam edərsə, bu ölkələrlə Azərbaycan arasında münasibətlər zərər görəcək. Təbii ki, Azərbaycan bu ölkələrlə, xüsusən də ABŞ-la strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Son 31 il ərzində, xüsusilə ABŞ Azərbaycanla yaxın münasibətlər qurub, bir sıra vacib geosiyasi, geoiqtisadi layihələrdə birgə iştirak edirlər. Hansı ki, Azərbaycan o layihələrin həyata keçirilməsində əsas dövlət olub, ona ciddi dəstək verib. Təəssüf ki, 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsindən sonra bu məsələdə ölkələrimiz arasında ciddi fikir ayrılığı yaranıb". M.Məmmədli eyni zamanda bildirir ki, Birləşmiş Ştatlar və Fransanın ökəmizdəki diplomatik nümayəndəlikləri, Azərbaycan dövlətinin rəsmi dəvətinə baxmayaraq, Şuşada keçirilən tədbirlərdə iştirak etmirlər. Əvvəllər də belə hallar olub. Bu da onu göstərir ki, səfərdən imtina təsadüfi deyil.

"Hər iki ölkə müharibə bitəndən sonra mütəmadi olaraq ATƏT-in Minsk Qrupunun reanimasiya olunması ilə bağlı mövqe ifadə edirlər. Hər iki ölkə, sanki Qarabağın statusunun hələ də müəyyən olunmadığını bəyan edir. Bu da təbii ki, Azərbaycanın mövqeyi ilə ziddiyyət təşkil edir. Ölkəmizin rəsmi mövqeyi ondan ibarətdir ki, bölgədə yaşayan bir ovuc ermənıyə hər hansı status vermək niyyətində deyilik. Münaqişə rəsmi olaraq bitib və Ermənistan - Azərbaycan arasında sülh prosesində Qarabağa vurğu vurulmasını, status məsələsinin qabardılmasını Azərbaycan dövləti qəbul etmir. ABŞ və Fransa buna görə də Şuşada keçirilən konfransda iştirak etməkdən imtina etdiklərini nümayişkaranə bildirdilər. Bununla bağlı cənab Hikmət Hacıyev həm dövlətimizin, həm də özünün mövqeyini, münasibətini dəqiq ifadə etdi".

Siyasi şərhçi Əli Mustafa bildirir ki, ABŞ və Fransa səfirlərinin Şuşaya səfərdən imtinasına Azərbaycana qarşı əksmesajların ifadəsi kimi baxılmalıdır. Ə.Mustafa hesab edir ki, bu, həm də ATƏT-in Minsk Qrupunun fəaliyyətinin dayandırılmasına qarşı verilən bir reaksiyadır.

"Bu, eyni zamanda, sülhyaratma missiyasında Fransanın və ABŞ-ın kənarda qalmasına etirazdır. Uzun illər ABŞ və Fransa ATƏT-in Minsk Qrupu çərçivəsində Rusiya da daxil olmaqla, birgə hərəkət edirlər. Əslində, heç bir iş ortaya qoymayıblar. Bununla belə, münaqişənin dondurulmasında, status-kvonun qalmasında əsas rol oynayıblar. Özlərinin maraqları, qazancları olub. Sonda münaqişə müharibə ilə çözülüb. Azərbaycan Silahlı Qüvvələri müharibə yolu ilə işğalçıları öz ərazirəindən qovub. ATƏT-in Minsk Qrupu öz üzərinə düşən missiyanı həyata keçirmədiyinə görə, Azərbaycanın dövlət başçısı da belə bir quruma ehtiyac olmadığını deyib. Eyni zamanda, Azərbaycan ictimaiyyəti bu qənaətdə olub ki, Minsk Qrupu fəaliyyətsizdir, faydasızdır. Nəticədə, Rusiya xaric, digər həmsədr dövlətlər indiki nizamlama prosesindən qıraqdadırlar. Əlbəttə ki, Fransa və ABŞ-ın demarşı buna qarşıdır. Onlar bir növ etirazlarını belə bildirirlər". Ə.Mustafa Fransa və ABŞ-dan gələn bu yanaşmada erməni lobbisinin, diasporasının əlinin olduğunu istisna etməyib. Onun sözlərinə görə, hər iki dövlətdə olan erməni diasporası, lobbisi seçkilərin nəticələrinə təsir edəcək dərəcədə güclüdür.

> *Hər iki dövlətdə olan erməni diasporası, lobbisi seçkilərin nəticələrinə təsir edəcək dərəcədə güclüdür*

"Bu baxımdan, nə ABŞ, nə Fransa ermənilərin etirazlarını gözardına alır. Bu, bir növ, erməni elektoratına hesablanmış addımlar da ola bilər. Nəzərə almaq lazımdır ki, payızda ABŞ-da seçkilər keçiriləcək. Bu dönəmdə erməni lobbisinin səsini itirmək istəmirlər. Azərbaycanın mövqeyi bəllidir və bəyan edir ki, Qarabağa status verməyəcək. Çox təəssüf, ABŞ-Fransa bu illər ərzində birtərəfli mövqe tutaraq ermənilərı müdafiə ediblər. Daxa çox bir xristian həmrəyliyi nümayiş etdiriblər. İndiki jestlərinə də xristian təəssübkeşliyinin davamı kimi baxıram. Proses ermənilərin xeyrinə olmadığına görə, etirazlarını bu formada bildirirlər...".

✍ Tahirə Qafarlı

# Azərbaycanın dövlətçilik tarixi

## Layihə

***Azərbaycanın dövlətçilik ənənələri ta qədimlərə dayanır. Aparılan tədqiqatlar sübut edir ki, ölkəmizin 5 min illik dövlətçilik tarixi var. Bunu sübut edən tarixi faktlar kifayət qədərdir. Tarixinin inkişafı zaman-zaman mədəniyyətimizin, adət-ənənələrimizin, elm və təhsilimizin, ədəbiyyatımızın tərəqqisinə səbəb olub. Azərbaycan xalqı dövlətçilik ənənələrinə bağlı bir xalq olaraq, bu təməllər üzərində öz milli-mənəvi dəyərlərini formalaşdırıb.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

Bununla belə, uzun illər boyu, əsasən də Çar Rusiyası və Sovet İttifaqı dönəmində regiona maraq göstərən bir çox alimlərin müəyyən siyasi mövqeyə xidmət edən yanaşması Azərbaycan xalqının dövlətçilik tarixinin təhrif olunmuş şəkildə öyrənilməsinə və təqdim olunmasına gətirib çıxarmışdı. 1991-ci ildə əldə olunan müstəqillik tariximizin dəqiq öyrənilməsi və erməni yalanları ilə mübarizəyə geniş imkan yaratdı. Ulu öndər Heydər Əliyevin bu sahədə alimlərin fəaliyyətini dəstəkləməsi, elmin bütün sahələrinin inkişafına dövlət tərəfindən şəraitin yaradılması öz müsbət nəticələrini verməyə başladı. Ümummilli liderin də söylədiyi kimi: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir".

Müstəqillik dövründə Azərbaycan tarixi ilə bağlı bir çox yeni araşdırmalar aparılıb. Bununla belə, xalqımızın, Cənubi Qafqaz regionunun tarixinin saxtalaşdırılması yönündə erməni təxribatları davam etməkdədir. Bu isə tarixi həqiqətlərin daha geniş işıqlandırılmasına, araşdırmaların nəticələrinin beynəlxalq səviyyədə təbliğinə ehtiyac yaradır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tarixi irsimizin dərindən araşdırılmasının zəruriliyini öz çıxışlarında dəfələrlə vurğulayıb: "Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. "Erməni alimləri" xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar".

> *Qədim və zəngin dövlətçilik tariximizin araşdırılmasına həsr edilmiş əsərlər ölkəmizdə vardır*



**Musa Qasımlı,**
millət vəkili

Bu gün Azərbaycanın dövlətçilik tarixi və elm-mədəniyyəti uğurla təbliğ edilir, milli-mənəvi dəyərlərimizə dövlət səviyyəsində yüksək qiymət verilir. Azərbaycanda milli adət-ənənələr mühafizə olunur və inkişaf etdirilir. Müstəqillik dövründə milli mənəvi dəyərlərin qorunmasına söykənən təbliğat işi əsasən 44 günlük Vətən müharibəsində öz bəhrəsini verib. Qeyd etmək yerinə düşər ki, Vətən müharibəsində heç zaman Qarabağda olmayan, o yerləri görməyən, həmin əraziləri yalnız mətbuatdan və dərsliklərdən tanıyan yeni nəsil Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qələbə qazandı. Məhz bu amil Azərbaycan gəncliyinin, eləcə də xalqının tariximizə olan ən böyük diqqəti kimi dəyərləndirilə bilər.

■ **Məsələyə münasibət bildirən millət vəkili, tarix elmləri doktoru, professor Anar İsgəndərov da hesab edir ki, Azərbaycanda dövlətçilik tarixinin öyrənilməsi və təbliği istiqamətində kifayət qədər işlər həyata keçirilib:** "İndiyədək Azərbaycanda dövlətçilik tarixinin öyrənilməsi və təbliği istiqamətində kifayət qədər işlər görülüb. Hazırda da bu istiqamətdə işlər uğurla aparılır. Məhz bunun nəticəsidir ki, 44 günlük Vətən müharibəsində düşmən ordusu darmadağın oldu".

Onun sözlərinə görə, Azərbaycan 1991-ci ildə yenidən öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1918-20-ci illərdə olduğu kimi erməni təcavüzü, erməni iddiaları ilə üz-üzə gəldi: "Çox təəssüflər olsun ki, həm 1918-20-ci illərdə, həm XX əsrin 90-cı illərin əvvələrində erməniləri müdafiə edən qüvvələr eynən həmin qüvvələr idi. Ona görə də, 1991-ci ildən sonra Azərbaycan sadəcə öz dövlət müstəqilliyinin bərpası haqqında aktı qəbul etdi. Azərbaycan torpaqları işğal olundu, xalq olaraq, dövlət olaraq sevinə bilmədik. Həm ölkə xaricindəki olan qüvvələr, həm də daxildəki qüvvələr hakimiyyət uğrunda mübarizə, mübahisələri Azərbaycan torpaqlarının işğalı ilə nəticələndi. 30 il ərzində Azərbaycanın dövlətçilik tarixi üçün ən böyük istək və arzu nədən ibarət oldu? Xalq olaraq öz torpaqlarımızı azad edək. Qeyd edim ki, həm ölkə daxilində, həm də ölkədən kənarda bu istiqamətdə Azərbaycanın aparmış olduğu təbliğat əvəzsizdir, kifayət qədərdir. Xüsusilə, ümummilli lider Heydər Əliyevin Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün dövlət başçısı olaraq, Ali Baş Komandan olaraq əlindən gələnləri etdi. Heydər Əliyevin siyasi varisi, Azərbaycan dövlət başçısı İlham Əliyev hakimiyyətə gəldikdən sonra öz dili desək, 17 illik hakimiyyəti dövründə öz əsgərindən bir gün belə ayrılmadı. Nə üçün ayrılmadı? Bütün danışıqların sonu onu göstərdi kİ, nə problemlə məşğul olan dövlətlər, nə də Ermənistan Azərbaycan torpaqlarından çəkilmək istəmir. Ona görə də, Azərbaycan dövləti əlindən gələni etdi və bunun da nəticəsi nədən ibarət oldu? 44 günlük müharibə ilə düşmən darmadağın oldu və Azərbaycan öz tarixi torpaqlarının sahib çıxdı. Həm Ali Baş Komandan, həm Azərbaycanın əsgər və zabiti bu boyda tarixi problemi öz xeyrinə həll edərək Azərbaycanın qəhrəmanı oldular. Təbii ki, bu gün Azərbaycan dövlətçilik tarixi üçün qarşımızda duran məqsəd nədən ibarət idi? Azərbaycanın dövlət başçısı da bu problemə dönə-dönə münasibət bildirir. Zaman gələcək bizim Ermənistan dövləti ilə səmimi münasibətlərimiz yaranacaq, yararlanmalıdır. Amma azərbaycanlı əhaliyə qarşı ermənilərin həyata keçirdiklərini biz heç vaxt yaddan çıxarmamalıyıq".

A.İsgəndərov onu da qeyd edib ki, bu gün Azərbaycan qüdrətli, dünyada öz mövqeyi olan bir dövlətə çevrilib: "Bu gün bir tərəfdən Qarabağda quruculuq işi görən, o biri tərəfdən dünyaya neft və qaz verən güclü Azərbaycan var. Güclü ordu, güclü iqtisadiyyat, vətənini dərin məhəbbətlə sevən xalq və iqtidar birliyi təbii ki, bu məsələnin hamısının uğurlu həlli üçün ən böyük vasitədir. Bu mənada Azərbaycan dövləti artıq 90-cı illərdəki Azərbaycan deyil. Bu gün təkcə Cənubi Qafqazda deyil, artıq dünyada öz mövqeyi olan bir güclü Azərbaycan var".

■ **Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən millət vəkili Musa Qasımlı isə bildirib ki, bu gün ölkəmizdə qədim və zəngin dövlətçilik tariximizin araşdırılmasına həsr edilmiş xeyli əsərlər var:**

"Bütün vətəndaşların tarixi tədqiqatlarla məşğul olmaq imkanı və potensialı heç bir vaxt olmur. Tarixi tədqiqatlarla peşəkar araşdırmaçılar məşğul olar və əsərlər yazarlar. Bizdə də belədir. Qədim və zəngin dövlətçilik tariximizin araşdırılmasına həsr edilmiş əsərlər ölkəmizdə vardır. Bu iş indi də bu və ya başqa səviyyədə davam etdirilir.

Əlbəttə, yazılan bütün əsərlərin heç də hamısı tarixi tədqiqatların metodoloji prinsiplərinə tam cavab vermir. Tədqiqatçı tarixi görmək istədiyi kimi deyil, olduğu kimi yazmalı və düzgün tarixi biliyin, təfəkkürün formalaşmasına kömək etməlidir. Həmin tədqiqat əsərlərindən istifadə etməklə dərsliklər yazılar, mediada və digər vasitələrlə milıətin tarixi təbliğ olunar. Bu, artıq öyrədici tarixdir. Hansı peşə və sənət sahibi olmasından asılı olmayaraq, millətin nümayəndələri öz tarixini -haradan gəldiyini, harada olduğunu və onun əsasında da haraya gedəcəyini bilməlidir. Heç bir millətin tarixi yalnız qələbələrdən və ya yalnız məğlubiyyətlərdən ibarət deyildir. Ona görə də millət, tarixindəki uğursuzluqların səbəblərini bilməli, dərs çıxarmalıdır".

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Azərbaycan yenidən TEKNOFEST-ə evsahibliyi edəcək

***Samsunda keçirilən dünyanın ən böyük aviasiya festivalı olan TEKNOFEST-də Azərbaycanın yeni nəsil pilotsuz silahlı uçuş aparatları ziyarətçilərə təqdim olunub. Hafta.az-ın yazdığına görə, vətəndaşlar Azərbaycanın yerli kamikadzesi SİHA-sı olan "İtiqovan"ın qarşısında xatirə fotosu çəkdiriblər. Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Rövşən Rüstəmov bu il 5-ci TEKNOFEST-in keçirildiyini xatırladıb.***

## Festival



Festivalın Türkiyə hüdudlarından kənarda ilk dəfə Azərbaycanda keçirildiyini bildirən Rüstəmov "3 ay əvvəl Azərbaycanda TEKNOFEST-in həyəcanının və coşğunun şahidi olduq. Bu gün Azərbaycan olaraq qardaş ölkədə - TEKNOFEST Qara dəniz-də stend açmışıq", - deyib. Qardaş ölkənin texnologiya sahəsində qazandığı uğurlardan çox məmnun olduqlarını vurğulayan R.Rüstəmov "T3 Fondu ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Xidmətləri və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında Elm Türkiyə və Eksperimental Təhsil proqramlarının Azərbaycanda tətbiqinə dair protokol imzaladıq" deyən Rüstəmov Türkiyə kimi milli və yerli SİHA və PUA istehsal etdiklərinə diqqət çəkib.

Bildirib ki, Azərbaycanın milli istehsalı olan SİHA və İHA-lar dünyanın müxtəlif ölkələrində keçirilən aviasiya tədbirlərində iştirak edərək uğur qazanıb. "Bu SİHA-lar xüsusilə Qarabağ müharibəsində özlərini sübut etdilər", - R.Rüstəmov deyib.

Nazir müavini qeyd edib ki, "TEKNOFEST"də Azərbaycandan 16 komanda iştirak edir. Onlar "TEKNOFEST Azərbaycan"da qalib olan komandalardır: "Bu gün burada onların texnoloji həllərinə çox böyük bir maraq var. Azərbaycanda keçirilən "TEKNOFEST"dən sonra bizə saysız müraciət edildi və əmin olduq ki, gənclərimiz seçimlərini artıq texnologiya sahəsində edirlər".

Qeyd edək ki, Azərbaycan milli pavilyonunda AR (Artırılmış Reallıq) sual divarı, TRİFT - VR (Virtual Reallıq) hərbi atış simulyatoru, AR "Dron yarışı" simulyatoru, "Smart Qarabağ" haqqında təqdimat nümayiş olunur. Ziyarətçilərə həmçinin "VR 360 Shusha view" binoklu ilə Qarabağın incisi olan Şuşa şəhərinə VR video səyahət təqdim edilir.

"TEKNOFEST hər dəfə İstanbulda təşkil edilirdi. Amma sonra qərar qəbul etdik ki, bir dəfə İstanbulda olanda, o biri dəfə Anadoluda təşkil edək. Biz ilk dəfə İstanbuldan kənarda Qaziantepdə keçirdik tədbiri. Sonra İstanbulda təşkil etdik, budur, indi isə Samsundayıq".

Bu sözləri isə TEKNOFEST İdarə Heyətinin sədri Səlcuq Bayraktar deyib. S.Bayraktar bildirib ki, tədbirin xarici ölkələrdə keçirilməsi üçün dəvət-təkliflər də az deyil. Belə ölkələrdən biri qardaş Azərbaycandır. "Azərbaycandan təklif aldıq, Qarabağ döyüşü oldu və qələbə ilə başa çatdı. Biz bu təkliflə qardaş ölkə Azərbaycanda ilk dəfə TEKNOFEST-i təşkil etdik. Orada da TEKNOFEST yüksək sürətli enerji doldurma stansiyası kimi bütün Azərbaycanı əhatə edirdi. İndi isə yenidən Anadoludayıq", - deyib S.Bayraktar.

Qarabağ zəfərinin çox önəmli olduğunu vurğulayan Bayraktar deyib ki, sitat: Qarabağ içimizdə qanayan yara idi. Gənclik illərində oradakı soydaşlarımızın yaşadığı vəziyyəti görmək bizi incidirdi. Uşaqlıq illərində az qala yaddaşlarımıza həkk olundu. Allaha şükürlər olsun ki, türk orduları torpaqlarımızı işğaldan azad edib, qanayan yaramızı sarıdılar, ürəklərimizə su səpdilər. Burada milli texnologiyalarımızın əhəmiyyəti bir daha dərk olundu. Dünyanın hər yerindən embarqo xəbərləri gəlməyə başladı. Bayraktar əlavə edib ki, əslində o embarqolar əvvəllər də olub. Qarabağ savaşı səbəbi ilə bizə satılmayan kameraları özümüz tam milli olaraq istehsal etdik. Gördük ki, müstəqillik və suverenlik üçün milli texnologiyalarımızı inkişaf etdirməyimiz mütləqdir.

O qeyd edib ki, "Bir millət, iki dövlət, tək festival" şüarı festivalda bir daha sübut edildi. "Azərbaycanda yenidən "Teknofest" festivalı keçirmək istəyərdik. Bizim üçün bu il keçirilən festival gözəl bir təcrübə oldu. Bu festival həmçinin yaxşı gündə, pis gündə daim birlikdə olduğumuzun bir göstəricisi oldu", - deyə o əlavə edib. Xatırladaq ki, "TEKNOFEST" Türkiyə Sənaye və Texnologiya Nazirliyi ilə Selçuk Bayraktarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı Vakfı"nın (T3 Vakfı) birgə təşkilatçılığı, qardaş ölkənin 60-dan çox dövlət qurumu, ali məktəbi və özəl şirkətinin tərəfdaşlığı ilə 2018-ci ildən etibarən hər il keçirilir. Bu ilin 26-29 may tarixlərində "TEKNOFEST" ilk dəfə Türkiyədən kənarda - Azərbaycanda keçirilib. "TEKNOFEST Azərbaycan" festivalını 300 minə yaxın ziyarətçi izləyib. Festival çərçivəsində 3 beynəlxalq tədbir və 8 texnoloji müsabiqə təşkil olunub.

✍ ***Vüsal Tağıbəyli***

## XƏBƏRİNİZ OLSUN...



■ Türkiyədə səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov həmkarı Hulusi Akarla görüşüb. Bu barədə məlumatı Türkiyənin Milli Müdafiə Nazirliyi yayıb. Görüş Kalender Qəsrində baş tutub.

■ "Qarabağ"ın qrup mərhələsində də azarkeşləri sevindirəcəyinə inanıram". Bunu gənclər və idman naziri Fərid Qayıbov son bir aydakı nailiyyətlər barədə öz qeydində yazıb: "Futbolumuzu qitə səviyyəsində layiqincə təmsil edən "Qarabağ" UEFA Avropa Liqasının qrup mərhələsinə yüksəlməklə bizi yenidən sevindirdi. Komandaya uğurlar arzulayıram".

■ Xankəndidə ermənilər aksiya keçirib. Onlar separatçı rejimin rəhbərindən qondarma "maliyyə", "təhlükəsizlik şurası" və "nazirlər kabineti" rəhbərlərinin istefaya göndərilməsini tələb ediblər. Nümayişdə mindən çox şəxsin iştirak etdiyi qeyd olunur. Aksiya iştirakçıları tələbləri yerinə yetirilənə qədər etirazlarını davam etdirəcəklərini bildiriblər.



■ Böyük Britaniyanın Azərbaycana yeni təyin olunan səfiri Fergus Ould Bakıya gəlib. Bu barədə məlumatı diplomat özü tviter hesabında paylaşıb. "Salam, Bakı! Böyük Britaniyanın Azərbaycandakı səfiri olaraq yeni vəzifəmin icrasına başlamağı səbirsizliklə gözləyirəm" - səfir qeyd edib.

■ Azərbaycan Tennis Federasiyasına prezident seçkiləri keçirilib. Milli Məclisin sabiq spikeri Oqtay Əsədov növbəti 4 il müddətinə federasiyanın rəhbəri seçilib.

■ Nazirlər Kabinetində yeni təyinat olub.Yusif Hüseynov Nazirlər Kabineti Aparatının rəhbərinin müavini təyin edilib. Beləliklə, Nazirlər Kabineti Aparatının rəhbərinin iki müavini olacaq. Nazirlər Kabineti Aparatının rəhbərinin digər müavini Natiq Məmmədovdur.



■ 2022-2023-cü tədris ilinin birinci semestri üzrə təhsil tələbə kreditinə müraciətlərin qəbulu davam edir. Bugünədək 779 tələbəyə kredit ayrılıb. Onlardan 210-u sosial, 569-u isə standart yönümlü kreditdir.

■ 2022-ci ilin yanvar-iyul aylarında Azərbaycanda xarici vətəndaşların bank kartları vasitəsi ilə aparılan əməliyyatların həcmi 1,3 milyard manata çatıb. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nda bildirilib. Məlumata görə, bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur.

# “Qarabağda yaşayan erməni Azərbaycanı tanımır”



**Arif Paşa,**
keçmiş Laçın alayının komandiri

***Keçmiş Laçın alayının komandiri Arif Paşa ilə hafta.az üçün bu dəfəki söhbətimizdə əsasən Laçın şəhəri, Zabux və Sus kəndlərinin azad edilməsinin dövlətimiz və ordumuz üçün yaratdığı üstünlüklər, həmçinin Rusiyanın rəsmən “sülhməramlı” sayılan kontingentinin yeni alternativ yola yerdəyişməsindən sonra həmin yol ətrafında yenidən 5 kilometrlik dəhliz qurulmasının yaradacağı təhlükələr, Laçın rayonun eyni yol ətrafındakı təxminən 6 kəndinin məcburi köçkün sakinlərinin öz doğma yurdlarına qayıtmaları üçün yaranacaq problemlər və s. haqda danışdıq.***

## Müsahib

***- Arif bəy, şükür Allaha ki, nəhayət, 30 il 3 aydan sonra Laçın şəhəri, Zabux və Sus kəndləri də Azərbaycan dövlətinin birbaşa nəzarət və yurisdiksiyasına qaytarıldı. Bu, ölkəmiz və xalqımız üçün böyük uğurdur. Bu münasibətlə sizə də gözaydınlığı veririk. Sizcə, bəhs edilən məntəqələrin azad olunmasının hansı hərbi və siyasi əhəmiyyəti var?***

- Öncə saytınız və qəzetiniz vasitəsi ilə də bütün Azərbaycan xalqına və xüsusən də Laçın camaatına gözaydınlığı verirəm. Laçının azad olunmasının hər bir Azərbaycan vətəndaşı üçün böyük əhəmiyyəti var. İkincisi, bunun hərbi nöqteyi-nəzərdən əhəmiyyəti ondan ibarətdir ki, Laçın şəhəri və Zabux kəndi Xankəndi-Gorus yolunun üzərində yerləşir. Və Zabux yalnız kənddən ibarət deyil, onun ətraf əraziləri də strateji əhəmiyyətlidir. İşğaldan öncə Laçın alayının Zabux və Cağazur kəndlərinə yaxın, Ermənistanla sərhəd ərazilərdə bütövlükdə rayonun müdafiəsi üçün olduqca əhəmiyyətli 29, 30 və 31 saylı müdafiə postları qurulmuşdu. Həmin postlarla üzbəüz ermənilərin “Tex” adlandırdıqları Dığ kəndi yerləşirdi. Bu postlardan bilavasitə Laçın-Gorus yolunun həm Azərbaycan, həm də Ermənistan ərazisindəki xeyli hissəsinə də nəzarət edirdik. Həmçinin Dığ kəndi istiqaməti tank təhlükəli istiqamət idi. Yəni həmin ərazi nisbətən düzənlik olduğu üçün o istiqamətdən düşmən tanklarla hücuma keçə bilərdi... Bir sözlə, Zabux yetərincə strateji əhəmiyyətə malik bir məntəqə idi və onun da Azərbaycan ordusunun nəzarətinə keçməsi əhəmiyyətli hadisədir...

Bəhs edilən məntəqələrin azad olunmasının siyasi əhəmiyyəti isə ondan ibarətdir ki, Azərbaycan dövləti daha bir uduş etdi. Əslində bu, bütövlükdə xalqımızın uduşudur. Eyni zamanda bu, Laçına, Zabuxa, Susa qayıdacaq insanlar üçün yeni bir həyati stimuldur. Bir sözlə, həm hərbi, həm siyasi baxımdan, həm də insanlarımızın bugünkü və gələcək taleyi baxımından çox əhəmiyyətli bir hadisədir...

- Bildiyiniz kimi, Rusiya tərəfi və Xankəndindəki separatçılar ermənilərin Qarabağdan Ermənistana gediş-gəlişi üçün Laçın rayonu ərazisindən keçən alternativ yolun ətrafında da 5 km enində dəhliz yaradılmasında israrlıdır. Və bu halda Laçınım köhnə dəhlizdəki azı 1 və yeni dəhlizdəki azı 5 kəndi yenidən Rusiya hərbi kontingentinin nəzarətində qalmalıdır. O ərazini qarış-qarış tanıyan peşəkar bir hərbçi kimi bu məsələyə münasibətiniz oxucularımız üçün də maraqlı olardı...

***- Azərbaycan ərazisindən ermənilərə hər hansı yol, dəhliz verilməsindən danışarkən öncə həmin məsələnin fəlsəfəsini, mahiyyətini anlamaq lazımdır. Hesab edirəm ki, hərbi qələbə çaldığımız 44 günlük müharibə dayandıqdan dərhal sonra birinci Azərbaycan tərəfi sual qoymalıydı ki, Qarabağda məskunlaşmış ermənilər Azərbaycanın ərazi bütövlüyü və suverenliyini, vətəndaşlığını qəbul edirlərmi? Yalnız onların ölkəmizin ərazi bütövlüyü və suverenliyini, vətəndaşlığını qəbul edəcəyi və artıq vətəndaşımız olacaqları halda Azərbaycan haylara Ermənistana gedib-gəlmək üçün yol verməliydi. Əks halda, yəni ermənilər Azərbaycanın ərazi bütövlüyünü tanımayıb, vətəndaşlığını qəbul etməyib özlərini Xankəndindəki separatçı-terrorçu qurumun qondarma vətəndaşı hesab edəcəklərsə, biz nəyə görə onlara nəinki yol, üstəlik, dəhliz də verməliyik? Bu, hansı məntiqə, hansı qanuna sığır?***

Biz nə üçün Rusiya və Ermənistan tərəfindən dəstəklənib idarə olunan qondarma separatçı qurum mənsublarının torpaqlarımızda yaşamasına və harasa gedib-gəlməsinə rahat şərait yaratmalıyıq? Yox əgər Qarabağdakı ermənilər Azərbaycanın vətəndaşı kimi bizim qanunlarla yaşayacaqlarsa, nə üçün orada “sülhməramlı”lar-filanlar olmalıdır? Bilirsiz, Qarabağda yaşayan erməni yalnız Ermənistana gedib-gəlir. Deməli, o, yalnız Ermənistanı tanıyır, Azərbaycanı tanımır. Azərbaycan dövləti və xalqı ilə hər hansı bir əlaqə, münasibət qurmaq istəmir. Deməli, o, bizim respublikanın, dövlətimizin varlığını qəbul etmir. Və bu baxımdan Azərbaycan ərazisində yaşayan və ərazi bütövlüyümüzü, vətəndaşlığımızı qəbul etmiş ermənin şəxsiyyət vəsiqəsi onun üçün ən yaxşı yoldur, koridordur da, dəhlizdir də... Yəni həmin sənədlə o, nəinki Ermənistana, digər vətəndaşlarımız kimi Bakıya da, Gəncəyə də, Şəkiyə də və s. sərbəst gedib-gələ bilər. Bir sözlə, Qarabağdakı ermənilər üçün birinci şərt belə olmalıdır: dövlətimizin vətəndaşlığını, ərazi bütövlüyünü qəbul edəcəksənsə, burada yaşaya bilərsən. Yox deyilən şərtləri qəbul etmirsənsə, sənə bircə dəfə yol verilə bilər: ölkəni tərk elə...

İkincisi, 30 ildən çoxdur ki, Qarabağdan, Zəngəzurdan didərgin düşmüş soydaşlarımız, o cümlədən laçınlılar həsrətlə öz yurdlarına dönəcəkləri günü gözləyir. Laçın şəhəri, Zabux və Sus kəndləri rəsmən yurisdiksiyamıza keçdi. Çox yaxşı... İndi isə ermənilər tələb edir, Rusiya da onlara dəstək verir ki, yeni yol ətrafında 6 kənd də köhnə yoldakı kimi 5 km-lik dəhlizə salınsın. Belə çıxır ki, 30 ildən çoxdur, bizlərə zülm edən, bizləri öldürən, əsir götürən, didərgin salan və demək olar ki, əksəriyyəti terrorçu və işğalçı xislətli olan və üstəlik, dövlətimizi, vətəndaşlığımızı qəbul etmək istəməyən ermənilərin Ermənistana rahat gediş-gəlişi üçün şərait yaratmalıyıq, amma 6 kəndimizin minlərlə sakini hələ bundan sonra naməlum müddətdə yenə də öz yurdlarının, dədə-baba məzarlıqlarının həsrəti ilə yaşamalıdırlar... Niyə belə olmalıdır? Qalib tərəf kimi hər bir şərti Azərbaycan dövləti qoymalı, diqtə etməli deyilmi... Nəyə görə biz Gəncəni, Bərdəni, Tərtəri və s. raket atəşinə tutan separatçı və terrorçuların nazı ilə oynamalıyıq?.. Nəyə görə Laçının 6 kəndinin sakinləri dövlətimizi tanımayan separatçı və terrorçulara görə əziyyət çəkməlidir?..

> “
>
> *Onlar üçün birinci şərt belə olmalıdır: dövlətimizin vətəndaşlığını, ərazi bütövlüyünü qəbul edəcəksənsə, burada yaşaya bilərsən*

***- Belə çıxır ki, biz separatçı, işğalçı və terrorçu xislətli ermənilərə qarşı həddindən artıq insanpərvər davranırıq?***

- Məgər bu günədək dünya ictimaiyyəti bizim atdığımız humanist addımları dəyərləndirib ki, bundan sonra da dəyərləndirsin?.. Hələ bir xeyli əvvəl Azərbaycanın ərazi bütövlüyü məsələsi səsə qoyulanda ATƏT-in o bədnam Minsk qrupunun hər 3 həmsədri: həm Rusiya, həm ABŞ, həm də Fransa nümayəndələri bizim ərazi bütövlüyümüz əleyhinə səs vermişdilər. Baxmayaraq ki, ATƏT-in təməl prinsiplərindən biri ölkələrin ərazi bütövlüyünün tanınmasıdır. Və təsəvvür edin ki, neytral arbitr rolunda çıxış etməli olan hər 3 ölkə ermənipərəst mövqe tutur və işğalçı Ermənistanın mənafeyini müdafiə edir. Son günlər isə Şuşaya beynəlxalq konfransa dəvət olunmalarına rəğmən ABŞ və Fransa səfirləri yenə də getmədilər. Maraqlısı odur ki, mənim ölkəmin ərazi bütövlüyünü təmin etməsi məsələsi dünyada demokratiyadan danışan dövlətlərin xoşuna gəlmir... Ona görə də həmişə demişəm ki, mənim üçün Rusiya kimdirsə, Fransa da elə həmin mahiyyətdir, həmin motivdir...

Bizim Qərb, beynəlxalq ictimaiyyət qarşısında istənilən reveransımız, ən humanist addımlarımız belə, onlarda bizə qarşı müsbət və rəğbətli hisslər yaratmır, müsbət münasibət formalaşdırmır. Dəfələrlə təkrar etmişik: üzərimizə gələn terrorçuları tuturuq, sonra qaytarırıq geriyə, onlar da gedib yenidən silahlanıb üstümüzə gəlirlər. Halbuki, sənin üzərinə elə birinci dəfə silahla gələn düşmən məhv edilməlidir.

Bu halda artıq hansısa humanist prinsiplər işləmir. Çünki həmin düşmən mənim üzərimə eyni prinsiplərlə gəlmir, o, məni öldürməyə gəlir. Mən isə onu tuturam və geri qaytarıram. Və təbii ki, ona yenidən üzərimə gəlmək üçün stimul verirəm. Amma özümüzü bir anlıq qoyaq ermənilərin yerinə, bizim yerimizə onlar olsaydı, belə davranardılarmı? Mənim dinc əhalimi amansızlıqla qıran erməni silahlı əsgərimi tutub sağ-salamat mənə qaytarardımı? Bizim 1990-cı illərdə Xocalıdan, Kəlbəcərdən, Laçından və s. didərgin kimi bir dəqiqə belə vaxt verilmədən soyqırımla, artilleriya, raket atəşləri ilə müşayiət olunan çıxma nümunəmiz var, hayların da 2020-ci ildəki qələbəmizdən sonra on günlərlə vaxt verilərək Kəlbəcərdən, Laçından arxayınca çıxma nümunəsi ortalıqdadır. Qərb, ABŞ, Avropa bütün bunları ədalətlə dəyərləndirirmi? Biz Hadrutda həbs etdiyimiz terrorçuları, Şuşada ələ keçirdiyimiz terrorçu snayper qadını geri qaytardıq - bunları dəyərləndirdilərmi?..

Bu baxımlardan xarici faktorlara qarşı sərtlik və prinsipiallıq, daxili faktorlara qarşı yumşaqlıq, sülhpərvərlik, barış və anlaşma prinsiplərini əsas götürməliyik...

***- Məlumdur ki, 10 noyabr bəyanat-razılaşmasına əsasən Şuşa rayonunun Şuşa şəhəri və Daşaltı kəndi istisna olmaqla qalan bütün ərazisi Rusiya hərbi kontingentinin nəzarəti altındadır. Odur ki, ermənilər üçün yeni dəhliz də yalnız 1 dekabr 2020-ci il tarixdə Laçın-Şuşa yolu ətrafındakı 5 km-lik enində dəhliz istisna olmaqla ərazisi işğaldan azad olunmuş Laçın rayonu ərazisindən keçə, yəni eyni rayon daxilində köhnə dəhliz yenisi ilə əvəzlənə bilər. Odur ki, alternativ yolun Şuşa rayonunun Böyük və Kiçik Qaladərəsi kəndlərindən keçən hissəsi boyu “dəhliz” anlayışı keçərsizdir Və bu mənada Laçının həmin kəndlərlə qonşu olan Ağanus kəndi də yenidən dəhliz ərazisinə salına bilməz... Əks halda Rusiya hərbçiləri yenidən Laçın şəhərindən və Laçın-Şuşa yolundan hava xətti ilə 1,5-2 km məsafədə nəzarət-müşahidə postu qurmalıdırlar ki, bu da onların yenidən Laçın şəhərinə və ətraf kəndlərə nəzarət etməsi deməkdir... Sizcə, bunlar qəbul oluna bilərmi?***

- Əvvəla, onu deyim ki, Şuşanın Kiçik və Böyük Qaladərəsi kəndləri ətrafındakı yüksəkliklər də həm Laçın şəhəri, həm də Şuşa-Laçın yolu üçün strateji əhəmiyyət kəsb edir. Bəli, dediyiniz kimi, əgər alternativ yol ətrafında da 5 km-lik dəhliz yaradılarsa, belə çıxır ki, Laçın ətrafındakı bir sıra strateji yüksəkliklər Rusiyanın və dolayısıyla separatçı-terrorçu rejimin nəzarətində qalır. Və kim zəmanət verir ki, sabah Rusiya-Ermənistan birliyi bu vəziyyətdən yararlanıb Laçını yenidən işğal etməyəcək. Bu, gələcək üçün çox təhlükəli məsələdir. Digər tərəfdən, niyə dəhliz məhz 5 km enində olmalıdır. Atıcı silahların hər birinin normal atış məsafəsi var: 700-800 metr, 1000-1500 metr və s. Biz guya o yolu hansı silahla vuracağıq? Hansı hərbi məntiqə əsaslanaraq bu parametri müəyyən ediblər. Üçüncüsü, Azərbaycana da Naxçıvana rahat, təhlükəsiz gedib-gəlmək üçün eyni cür 5 km-lik dəhliz verilirmi? Axı Naxçıvana gedib-gəlmək üçün heç bir cığır da verməyiblər... Rəhmətlik Cövhər Dudayevin bir ibrətamiz sözü var: “Ruslarla bağlanmış sülh müqaviləsi suyun üzərinə çəkilmiş imza kimidir...” Əgər Rusiya və Ermənistan öz imzalarına hörmət qoyub Zəngəzur dəhlizinin açılması, eləcə də erməni silahlılarının, terrorçuların Qarabağdan çıxarılması və s. barədə öhdəlikləri yerinə yetirmirsə, Azərbaycan niyə birtərəfli qaydada üzərinə düşəni etməli və yenidən 5 km dəhliz verməlidir ermənilərə? Odur ki, öncə dediyim kimi, biz işimizi konkret olaraq Qarabağdakı ermənilərlə görməliyik. Onların Azərbaycan vətəndaşlığını qəbul etməyəcəyi halda ölkə ərazisini birmənalı olaraq tərk etməlidirlər. Bu halda vasitəçiyə, Rusiya “sülhməramlı”sına ehtiyac qalmır. Ermənilərin vətəndaşlığımızı, ərazi bütövlüyümüzü qəbul edəcəyi halda da yenə hansısa “sülhməramlı”ya-filana ehtiyac yoxdur. Çünki Azərbaycan dövləti və ordusu digər millətdən olan vətəndaşları kimi erməni vətəndaşlarının da təhlükəsiz yaşamını, ölkədaxili sərbəst hərəkətini özü təmin edəcək...

***✍ Sultan Laçın***




**Müzakirə**

**Qurumun tabeliyindəki müəssisələri hansı şirkət idarə edəcək?**

# SOCAR xərclərini daha da optimallaşdıracaq

***SOCAR yaxın gələcək üçün xərclərin daha da optimallaşdırılmasını və gəlirlərin artırılmasını hədəfləyir. Qeyd edək ki, hələ 2019-cu ilin sonunda SOCAR-ın neft-qaz emalı və neft-kimya müəssisələrinin yenidən qurulması, modernizasiyası, həmin müəssisələrin emal, istehsal, əməliyyat, keyfiyyətə nəzarət, əməyin təhlükəsizliyi, təmir-baxım işlərinin koordinasiyası, xammal və aralıq məhsulun ötürülməsi, digər texniki, texnoloji və kommersiya əməliyyatlarının səmərəli həyata keçirilməsi, habelə maliyyə resurslarının daha rentabelli idarə edilməsi məqsədilə SOCAR-ın təsisçiliyi ilə “SOCAR Downstream Management” şirkəti yaradılıb.***

Heydər Əliyev adına Neft Emalı Zavodu (NEZ) “SOCAR Downstream Management” şirkətinin idarəetməsinə iki il öncə verilərək innovativ və beynəlxalq təcrübələrin tətbiqi, idarəetmə və əməliyyatların optimallaşdırılması istiqamətində mühüm tədbirlərin, o cümlədən biznes prosesləri, SƏTƏMM, aktivlərin idarə edilməsi, istehsalatın düzgün proqnozlaşdırılması və planlaşdırılması istiqamətində “Əməliyyat Mükəmməlliyi” proqramlarının icrasına başlanılıb.

Hazırda beynəlxalq təcrübəyə uyğun olaraq operativ idarəetmə mexanizmlərinin, vahid texnoloji prosesin yaradılmasının, SOCAR-ın emal zəncirinin dayanıqlı fəaliyyətinin təmin olunmasının, hazır məhsulun rəqabət qabiliyyətinin və SƏTƏM normativlərinə daha da ciddi riayət olunmasının gücləndirilməsi məqsədilə SOCAR-ın neft-qaz emalı və neft-kimya sənayesi üzrə fəaliyyət göstərən digər emal müəssisələrinin də (“Azərikimya” İB, Karbamid zavodu, Metanol Zavodu, “SOCAR Polymer”, Qaz Emalı Zavodu və sair) qanunvericilik və nizamnamələr nəzərə alınmaqla “SOCAR Downstream Management” şirkətinin idarəetməsinə verilməsi prosesinə start verilib.

Bu proses şaquli inteqrasiya prinsipi əsasında həyata keçirilir. Belə ki, şaquli inteqrasiya çərçivəsində SOCAR-ın neft emalı və neft kimya müəssisələrinin dəyər zənciri üzrə bir-biri ilə inteqrasiyalı fəaliyyəti nəticəsində güclü sinerji yaradılaraq xərclərin optimallaşdırılması və gəlirlərin artırılması hədəflənir.

Hazırda Heydər Əliyev adına NEZ, “Azərikimya” İB və “SOCAR Polymer” müəssisələri vahid dəyər zənciri üzrə bir-birini xammal ilə təmin edir. Bu müəssisələr arasında şaquli inteqrasiya əsasında güclü sinerji yaradılaraq istehsalat prosesində səmərəliliyin artırılması, fasiləsiz istehsalatın təmin edilməsi, nəticədə SOCAR-ın xarici bazarlarda rəqabət qabiliyyətinin artırılması hədəflənir.

Emal və neft kimya müəssisələrinin vahid mərkəzdən idarəedilməsi, idarəetmədə səmərəliliyi artırmaqla yanaşı, layihələrin daha sürətli icrasına, əməyin təhlükəsizliyinin gücləndirilməsinə, rəqəmsal və innovativ texnologiyaların tətbiqinə, insan kapitalının yüksəlməsinə və əməkdaşların karyera inkişafının təmin edilməsinə zəmin yaradacaq.

2019-cu ilin noyabr ayında da SOCAR-ın Türkiyədəki törəmə müəssisələri olan “Petkim”, “STAR” NEZ, “SOCAR Petrol Ticarət” və “SOCAR Depolama” arasında şaquli inteqrasiyanın təmin edilməsi və güclü sinerjinin yaradılması məqsədilə “Neft-emalı və Neft-kimya Biznes Bölməsi” yaradılıb.

Pandemiya dövrünün çətinliklərinə və qlobal miqyasda təchizat zəncirində baş verən fasilələrə baxmayaraq, “Petkim” və “STAR” NEZ-in inteqrasiyalı fəaliyyəti nəticəsində yaradılan güclü sinerji ilə hər iki müəssisə fasiləsiz istehsal prosesinə nail olub, rəqabət qabiliyyətini artırıb.

Hazırda “Petkim” və “STAR” NEZ-in inteqrasiyalı fəaliyyəti nəticəsində “Petkim” əsas xammal ehtiyacı olan yüngül nafta məhsulunu STAR NEZ-dən daha yüksək keyfiyyətdə tam təchiz edir. “STAR” NEZ-dən əvvəl isə “Petkim” yüngül nafta xammalının tamamını xarici ölkələrdən idxal edirdi. Beləliklə, “Petkim” yüngül nafta idxalı üçün sərf etdiyi nəqliyyat və idxal xərclərini tamamən aradan qaldıraraq rəqabət qabiliyyətini, daha keyfiyyətli və stabil yüngül nafta istifadəsi sayəsində isə gəlirlərini artırmağa nail olub.

Eyni zamanda, “Petkim” və “STAR” NEZ-in inteqrasiyalı fəaliyyəti nəticəsində istehsal prosesi daha səmərəli idarə olunmağa başlanıb. Qeyd edək ki, xammalın idxalı nəticəsində nəqliyyat və digər səbəblərdən yaranan gecikmələr istehsal proseslərinə birbaşa mənfi təsir göstərir ki, bu da məhsulun maya dəyərinin artmasına və hədəf bazarlarda rəqabət qabiliyyətinin azalmasına gətirib çıxarır. Bu hadisə ən çox pandemiya dövründə təchizat zəncirlərində yaranan fasilələrdə özünü bariz bir şəkildə göstərib.

“Petkim” və “STAR” NEZ-in inteqrasiyalı fəaliyyəti nəticəsində müxtəlif kateqoriyalarda, xüsusilə istehsalat, satınalma, ticarət, texniki xidmət, maliyyə, IT və korporativ xidmətlər sahəsində yaradılan əlavə maliyyə dəyəri 2019-2021-ci illər üzrə təqribən 100 milyon ABŞ dolları təşkil edib. SOCAR-ın ölkə daxilində fəaliyyət göstərən neft-qaz emalı və neft-kimya müəssisələrinin inteqrasiyalı fəaliyyəti nəticəsində də əhəmiyyətli dərəcədə əlavə maliyyə dəyərinin yaradılması hədəflənir.

> “
>
> *SOCAR xarici bazarlarda əldə etdiyi təcrübəni yerli bazardakı daha çoxsaylı müəssisələrin idarəçiliyində tətbiq etməyə başlayıb*

■ **Mövzunu şərh edən Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban bildirib ki, Azərbaycan Dövlət Neft Şirkəti bu addımı ilə xarici bazarlarda əldə eydiyi təcrübəni yerli bazarlarda tətbiq etməyə hazırlaşır: “SOCAR xarici bazarlarda əldə etdiyi təcrübəni yerli bazardakı daha çoxsaylı müəssisələrin idarəçiliyində tətbiq etməyə başlayıb.**

Yəni, SOCAR neft-qaz emalı və neft-kimya sənayesi üzrə fəaliyyət göstərən emal müəssisələrinin “SOCAR Downstream Management” şirkətinin idarəetməsinə verilməsi prosesinə start verilməsi ilə bağlı atdığı addımı bütün istehsal müəssisələrinin dayanıqlı, stabil xam mal təhcizatının yaxşılaşdırılması üçün edilir.

Digər tərəfdən, bu proses istehsal edilən yarımfabrikat və məhsulların bazarda rəqabətə davamlığını təmin etmiş olacaq. Eyni zamanda, SOCAR bu istehsal obyektlərinin birinin xam mal, digərinin yarımfabrikatçı şəklində çıxış edən istehsalçılar arasında əlaqələrin vahid idarəçilikdə birləşdirilməsini ortaya qoyur. Bundan öncəki təcrübəyə nəzər salaq. Ayrı-ayrılıqda hər bir müəssisə fəaliyyət göstərərkən, heç də qarşıya qoyulan məqsədlərə çatmaq və əldə edilən nəticənin arzuolunan səviyyədə təmin edilməsi mümkün olmurdu. Bu cür vahid ümumi idarəetmə sistemi ona hesablanıb ki, hər hansı müəssisədə problemlər yarandığı təqdirdə belə, kifayət qədər ehtiyat yaradılacaq və digər istehsal müəssisələrini istehsal prosesindəki stabilliyi təmin ediləcək, bazarlarda müştərilərin təminatının stabilliyi qorunacaq”.

***✍ Sevinc***

# Xaricdə təhsili seçənlər

***Azərbaycanın ali məktəblərinə qəbul olmaq istəyənlər üçün ixtisas seçimi başa çatıb. Yaxın günlərdə ixtisas seçiminin nəticələri elan olunub. Amma bu gün bir çox gənclərimiz təhsil almaq üçün yerli universtetlərə deyil, xarici ali məktəblərə üz tuturlar. Onların bir hissəsi dövlət xətti, digər bir qismi isə öz vəsaitləri hesabına xaricdə təhsillərini davam etdirirlər. Statistikaya görə, hazırda ölkədən kənarda tək öz vəsaiti hesabına təhsil alanların sayı 40 min nəfərdən çoxdur. Bu ildən isə yeni Dövlət Proqramı çərçivəsində azərbaycanlı gənclər yenidən dövlət hesabına xaricdə təhsil almağa yollanacaqlar.***

## Təhsil



**Yeri gəlmişkən...**

**“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”nın hədəf göstəricisi 2022-2026-cı illərdə hər il 400 nəfərədək olmaqla, ümumilikdə isə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin təmin edilməsidir. Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil yerlərinin ən azı 80 faizi ali təhsilin magistratura səviyyəsini əhatə edəcək.**

Bundan başqa, Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində 2022-2023-cü tədris ili üzrə Macarıstanda 149, Çində 31, Latviyada 10, Ruminiyada 3 və Türkiyədə (doktorantura/YTB) 7 nəfər təhsil almaq hüququ qazanıb. Tələbələr təhsilini sözügedən ölkələrin aparıcı ali təhsil müəssisələrində, bakalavriat, baza ali tibb təhsili, magistratura və doktorantura səviyyələrində ölkənin iqtisadi inkişafı üçün zəruri olan ixtisas sahələrində davam etdirəcəklər. Maraqlıdır, görəsən, hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələr daha çox hansı ölkələrdə və hansı ixtisaslar üzrə təhsil alırlar? İndiyədək, ümumilikdə, dövlət xətti ilə təhsil alan tələbələrdən neçə nəfəri təhsilini başa vuraraq Azərbaycana qayıdıb? Onların təhsil almasına nə qədər vəsait xərclənib? Hazırda Azərbaycanda daha çox hansı ölkələrin ali məktəblərinin diplomları tanınmır? Xaricdə təhsil almaq istəyən gənclər gələcəkdə sənədlərinin Azərbaycanda tanınmasında problem yaşanmaması üçün nələrə diqqət yetirməlidirlər?

Bununla bağlı apardığımız araşdırmalar göstərir ki, xaricdə yüksək səviyyədə təhsil alan gənclərin böyük bir hissəsi Azərbaycana geri qayıtmaq və burda qalıb işləmək istəmir. Qayıdan məzunlar isə əsasən dövlət deyil, özəl müəssisələrdə işləməyi üstün tuturlar. Məzunlar bunu dövlət sektorunda əmək haqqının o qədər də yüksək olmaması, eyni zamanda karyera qurmaq üçün özəl sektorun daha münasib olması ilə izah edirlər.

### 3500 nəfərə 90 milyondan çox vəsait xərclənib

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, xarici ölkələrdə təhsil almaq üçün gedənləri əsasən bir neçə qrupa bölmək olar: “Onlardan biri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladıqları ballar burda ali məktəblərə qəbul olmağa imkan verməyənlərdir ki, bunların sayı hədsiz dərəcədə çoxdur.**

Bu kateqoriyaya aid olan şəxslər daha çox Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstan kimi ərazilərin universitetlərində təhsil almağa üstünlük verirlər. Bu ölkələrdə təhsil almağa gedənlərin əksəriyyəti hüquq, maliyyə-iqtisadiyyat kimi ixtisaslara daha çox üstünlük verirlər. İkinci kateqoriyanı o şəxslər təşkil edir ki, onlar Azərbaycanda ali məktəblərə qəbul olurlar, amma aldıqları təhsil onları qane etmir. Ona görə də daha yüksək səviyyədə təhsil almaq üçün xarici ölkələrə üz tuturlar. Müəyyən şəxslər də var ki, ali təhsil almaq istəyir, amma Azərbaycanda təhsil haqları yüksək olduğu üçün daha ucuz təhsil haqqı olan ölkələrə gedirlər. Bu şəxslər daha çox Türkiyə, Macarıstan, və digər Avropa ölkələrinin universitetlərinə üz tuturlar və seçdikləri ixtisaslar tibb, kompüter və ya informasiya texnologiyaları, nano texnologiya kimi ixtisaslar olur.

Üçüncü kateqoriyanı isə 2007-2015-ci illəri əhatə edən xaricdə təhsil dövlət proqramı çərçivəsində xarici ölkələrdə təhsil almağa gedənlər təşkil edir. Bu proqram çərçivəsində daha çox Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi güdülürdü. Xaricdə təhsillə bağlı 2007-2015-ci illəri əhatə edən ilk proqram çərçivəsində 5 min azərbaycanlının ölkədən kənarda təhsil alması nəzərdə tutulurdu. Amma proqram çərçivəsində 3500 gənc xaricə təhsil almağa göndərildi.

Və onların təhsil alması üçün 90 milyon manatdan çox vəsait ayrıldı. Ancaq bu qədər vəsait ayrılmasına baxmayaraq xaricdə təhsil alıb, geri qayıtmayan şəxslər oldu. Halbuki həmin gənclər Azərbaycanda ehtiyac olan ixtisaslar üzrə təhsil almağa göndərilmişdilər. Artıq həmin proqram üzrə təhsil alan sonuncu tələbə qrupu bu il məzun oldu. Bu ildən yeni dövlət proqramı tətbiq olunur. Dövlət proqramının əsas məqsədi rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkəmizin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, istedadlı gənclərin dünyanın inkişaf etmiş ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin səmərəliliyinin artırılmasıdır. Bu proqram çərçivəsində hər il 400 nəfərdən çox olmamaq şərtilə gənclər xaricdə təhsil almağa göndəriləcək. Artıq ilk nəticələr açıqlanıb. Bildiyim qədər 360-ya yaxın namizəd seçimdə uğur qazanıb. Namizədlər daha çox Avropa və Amerikanın bir neçə universitetindən uğur əldə ediblər. Bu yaxşı haldır. Çünki Azərbaycan gəncləri dünyanın nüfuzlu universitetlərində ixtisaslı kadr kimi hazırlanıb bizim əmək bazarına daxil olacaqlar. Bu Azərbaycanda xidmət sektorunun inkişafına, rəqabətədavamlı və dayanıqlı iqtisadiyyatın formalaşmasına müsbət təsir göstərəcək”.

### 1400-ə yaxın gənc ölkəyə qayıtmayıb

**Ekspert vurğulayıb ki, yeni proqram əsasında uğur qazanan gənclər əvvəlki proqramdan fərqli olaraq Azərbaycana qayıdıb fəaliyyət göstərəcəklər: “Bu yaxşı haldır. Onlar məzun olduqdan sonra hökumətin müəyyənləşdirdiyi yerdə işləyəcəklər. Əvvəlki proqramda biz bu tələbi görməmişdik. İndi dövlət belə bir tələb irəli sürür ki, həmin məzunlar mütləq şəkildə Azərbaycana qayıdaraq fəaliyyət göstərməlidirlər.**

Ən vacib məqam isə həmin şəxslərin işlə təminatı məsələsidir ki, bununla bağlı da artıq ciddi addımlar atılıb. Bilirsiniz ki, Dövlət qulluğu” haqqında qanunvericiliyin tələblərinə görə, yalnız Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə təhsil alan şəxslər dövlət qulluğu imtahanının test mərhələsindən azaddırlar və onlar birbaşa müsahibə mərhələsinə buraxılırlar.

Yəni, artıq onların işlə təminatında heç bir problem yaşanmır. Dövlət qulluğunda əməkhaqqı ildən-ilə artır. Məsələn, təkcə təhsil sahəsində çalışanlara, hətta məktəb direktorlarına 1500 manatdan da çox əlavə ödənişlər ödənilir. Başqa sözlə, bu gün dövlət qulluqçularının əməkhaqqı kifayət qədər Şərqi Avropa ökələrinə çatdırılıb. Bu kimi müsbət dəyişikliklər həmin gənclərin heç bir tərəddüd etmədən ölkəyə qayıtmasına, rahat şəkildə iş tapmasına imkanlar yaradır”.

“ *2007-2015-ci illəri əhatə edən ilk proqram çərçivəsində 5 min azərbaycanlının ölkədən kənarda təhsil alması nəzərdə tutulurdu*

*Bu gün dövlət qulluqçularının əməkhaqqı Şərqi Avropa ökələrinə çatdırılıb*

K.Əsədov onu da qeyd edib ki, birinci dövlət proqramı çərçivəsində xaricdə təhsil alan 3500 gəncdən təxminən yarısı geri qayıtmayıb: “Birinci ili 600 nəfər geri qayıdıb. Sonrakı illərdə isə geri qayıdanların sayı əhəmiyyətli dərəcədə azalıb. Ümumilikdə bizdə olan 1400 nəfər geri qayıtmayıb”.

### Hansı ölkələrin diplomları tanınmır?

**Ekspert həmçinin vurğulayıb ki, hazırda xarici ölkələrdə öz vəsaiti hesabına təhsil alan azərbaycanlı tələbələrin sayı 42 min nəfərdir: “Onlardan 21 min 600-ü qardaş Türkiyədə, 8 mini Ukraynada, qalan 6 minə qədəri Rusiya və Gürcüstanda, eyni zamanda, digər Avropa və ABŞ universitetlərində təhsil alırlar:**

“Birmənalı şəkildə qeyd edim ki, nüfuzlu universitetlərdə öz vəsaiti hesabına təhsil alan gənclərin Azərbaycanda təhsil sənədlərini rahat şəkildə təsdiqlədə bilirlər. Amma Ukrayna, Gürcüstan və Rusiyada təhsil alanlar bu məsələdə ciddi problem yaşayırlar. Çünki müsahibə mərhələsində həmin gənclərin ya tədris dilini bilmədikləri, ya da təhsil aldıqları ölkədə cəmi 2-3 dəfə olduqları ortaya çıxır. Hesab edirəm ki, Elm və Təhsil Nazirliyi bu məsələdə haqlıdır. Məsələn, Azərbaycanda distant təhsil tanınmır, amma gənclər gedib oxuyurlar. Qiyabi təhsil alma forması bizdə tanınmır, amma yenə də gənclər təhsil alırlar. Xaricdə təhsil almaq istəyən gənc təhsil sənədinin tanınmasını istəyirsə, dövlətin müəyyən etdiyi qaydada təhsil almalıdır ki, sonradan diplom sənədinin tanınmasında hansısa problem yaşamasın”.

✍ ***Sevinc***

# “Azərsu” Laçın, Sus və Zabuxun içməli su təchizatının bərpasına başlayıb



***“Azərsu” Açıq Səhmdar Cəmiyyəti işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Laçın rayonunda içməli su təchizatı sistemlərinin bərpası və yenidən qurulması istiqamətində işləri davam etdirir.***

Azərbaycan ordusu tərəfindən tam nəzarətə götürülmüş Laçın şəhəri, Sus və Zabux kəndlərinin içməli su təchizatının bərpa edilməsi məqsədilə Cəmiyyətin mühəndis-texniki heyəti, qəza-bərpa briqdasından ibarət qrup həmin tarixdən Laçın şəhərində işlərə başlayıb.

Bu barədə hafta.az-a “Azərsu”dan məlumat verilib. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahından verilən məlumata görə, hərbi və mülki təyinatlı obyektlərin dayanıqlı içməli su təminatı məqsədilə ilkin olaraq su mənbəyi, magistral su kəməri və digər hidrotexniki qurğularda təftiş işləri aparılıb. Məlum olub ki, Laçın şəhərini içməli su ilə təmin edən subartezian quyuları, nasos stansiyası və digər hidrotexniki qurğular məqsədli şəkildə sıradan çıxarılıb, nasoslar sökülərək aparılıb. Eyni zamanda magistral kəmər bir neçə nöqtədə qəsdən dağıdılıb, bir nöqtədə kəmərin içərisinə böyük bir ağac kötüyü yerləşdirilib. Bakıdan, 5 və 7 saylı regional sukanal idarələrindən Laçına ezam olunmuş mütəxəssislərin gərgin fəaliyyəti nəticəsində avqustun 31-də alternativ mənbə olaraq bulaqlardan şəhərə suyun gətirilməsi təmin edilib. Laçın şəhərində xidməti vəzifələrini yerinə yetirən, eləcə də təmir-bərpa işlərinə cəlb olunmuş şəxsi heyəti su ilə təmin etmək üçün sudoldurucu qüllə quraşıdırılıb, su təminatı əraziyə cəlb olunmuş 3 ədəd sudaşıyan maşınla aparılır.

Hazırda “Azərsu” ASC-nin mühəndis-texniki heyəti, qəza-bərpa briqdasından ibarət qrup Laçın şəhərinin içməli su təchizatı sistemlərinin təftişi və bərpası istiqamətində təxirəsalınmaz tədbirləri davam etdirir.

Xatırladaq ki, 2021 və 2022-ci illərdə Təxirəsalınmaz tədbirlər çərçivəsində “Azərsu” ASC tərəfindən Laçın rayonu ərazisində müxtəlif diametrli borularla ümumilikdə 13 km uzunluğunda su xətləri çəkilib, ərazidə fəaliyyət göstərən obyektlər dayanıqlı içməli su ilə təmin olunub. Eyni zamanda, zərurət yarandıqda maşınlarla suyun daşınmasını təmin etmək üçün 3 nöqtədə sudoldurucu qüllələr quraşdırılıb. Ötən müddətdə Kəlbəcər Sukanal Sahəsi tərəfindən Laçın rayonuna da xidmət göstərilib. Qeyd edək ki, “Azərsu” ASC-nin hazırda Kəlbəcər və Zəngilan rayonlarında, Şuşa şəhərində və Hadrut qəsəbəsində fasiləsiz xidməti təmin edən sahələri fəaliyyət göstərir.

# 23 mindən çox abituriyent dövlət sifarişli yerlərə qəbul olub

**Ali təhsil müəssisələrinin müsabiqəsində 66 724 nəfər iştirak edib, onlardan 48841 nəfəri (o cümlədən 4927 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub.**



Bu barədə hafta.az-a Dövlət İmtahan Mərkəzindən xəbər verilib. Bildirilib ki, 23044 (o cümlədən 253 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 25797 (o cümlədən 4674 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.



**■ “Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinləri Şahin Mustafayevlə Mqer Qriqoryanın üçüncü görüşü Brüsseldə keçiriləcək”. Bu barədə məlumatı “Joxovurd” qəzeti yayıb.**

“Baş nazirlərin müavinlərinin yeni görüşü Azərbaycan və Ermənistan liderlərinin görüşündən sonra 1 ay ərzində baş tutacaq”, - deyə məlumatda qeyd olunub. Xatırladaq ki, avqustun 30-u Moskvada Şahin Mustafayev və Mqer Qriqoryanın sədrliyi altında Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın ikinci görüşü keçirilib.



**■ Laçın rayonu ərazisində kütləvi şəkildə piyada əleyhinə minalar aşkarlanır.**

Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) məlumat verir ki, Laçın rayonu ərazisində piyada əleyhinə mina sahələrindən ancaq cari ilin 15 avqust tarixindən 31 avqust tarixinədək 1318 ədəd PMN-G növlü minalar aşkar edilib. Həmin minalar Vətən müharibəsindən sonra 2021-ci ildə Ermənistanda istehsal olunub. Qeyd edək ki, beynəlxalq humanitar hüququa əsasən, 1997-ci ildə qəbul edilmiş Ottava müqaviləsi piyada əleyhinə minaların istehsal edilməsi, saxlanılması, daşınması və istifadəsini qadağan edir.



**■ Külli miqdarda dələduzluqda təqsirləndirilən sabiq deputat Rəfael Cəbrayılovun qardaşı Elşən Cəbrayılov ev dustaqlığına buraxılıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, Bakı şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə başlanaraq istintaqının aparılması üçün Nərimanov rayon polis idarəsinin İstintaq şöbəsinə göndərilmiş iş üzrə Elşən Cəbrayılov təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində Bakı Apellyasiya Məhkəməsinin 22 aprel 2022-ci il tarixli qərarı ilə həbs qətimkan tədbiri seçilib. 23 iyul 2022-ci il tarixdə Nərimanov rayon Məhkəməsinin qərarı ilə Elşən Cəbrayılov barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirilərək ev dustaqlığı qətimkan tədbiri seçilib.



**■ Ukraynanın Nikolayev-Krivoy Roq və digər istiqamətlərdə hücum əməliyyatlarını bərpa etmək cəhdi uğursuz olub. Bunu Rusiya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi İqor Konaşenkov bugünki brifinqdə bildirib.**

Onun sözlərinə görə, Arxangelsk, Olgino və Ternovye Podıya uğursuz hücumlar zamanı Ukrayna tərəfi xeyli itki verərək geri çəkilib. “Suxoy Stavok məntəqəsi yaxınlığında Ukraynanın 57-ci briqadasının bir batalyonu darmadağın edilib, həmin bqriqadan qalıqlarının məhv edilməsi bitmək üzrədir. Konaşenkov 2 gün ərzində uğursuz hücumlar zamanı Ukrayna qoşunlarının 4 döyüş təyyarəsi, 3 ədəd Mi-8 helikopteri, 63 tankı, 48 digər döyüş zirehli texnikasını və 1,7 mindən çox əsgərinin məhv edildiyini söyləyib.



**■ “Azərbaycanın Avrasiya İqtisadi İttifaqı (Aİİ) ilə dialoqunun hər hansı bir formatda inkişafı sözsüz ki, bütün region üçün hiss olunan effekt verər”.**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib. “Öz tərəfimizdən Azərbaycan Baş nazirinin Avrasiya İqtisadi İttifaqının hökumət sədrlərinin iclasında iştirakını müsbət qiymətləndiririk. Fikrimizcə, Bakı ilə Aİİnin əməkdaşlıq potensialı olduqca yüksəkdir. Biz bu cür əməkdaşlığın böyük perspektivini götürürük. Eləcə də, hesab edirik ki, bu əməkdaşlıq Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinin xeyrinə olacaq.




**■ Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycanın nəzarətinə keçməsi ilə əlaqədar həmin yaşayış məntəqələrində qeyri-qanuni olaraq məskunlaşmış ermənilərin ərazini tərk etməsi zamanı törədə biləcəkləri təxribatların, o cümlədən yanğın hadisələrinin qarşısının vaxtında alınması üçün Fövqəladə Hallar Nazirliyinin müvafiq qüvvələri həmin ərazilərə cəlb olunub.** Bu barədə FHN məlumat yayıb. Qeyd olunub ki, erməni vandalları bu dəfə də qeyri-qanuni yaşadıqları evləri, habelə meşələri yandıraraq həmin əraziləri tərk etdilər. Belə ki, Laçın şəhəri və ətraf ərazilərdə ermənilər tərəfindən törədilmiş 6 yanğın hadisəsi qeydə alınıb. Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələrinin çevik müdaxiləsi sayəsində yanğınlar qısa müddətdə söndürülərək genişlənməsinə imkan verilməyib.

# 3890 - taleyi naməlum Azərbaycan vətəndaşları

***İtkin düşmüş, əsir girov götürülmüş insanlara görə Azərbaycan ən çox zərər çəkmiş dövlətlərdəndir və bu gün beynəlxalq təşkilatlar tərəfindən ədalətli münasibətin sərgilənməsini gözləyir. Təəssüf ki, bu məsələyə BMT tərəfindən xüsusi diqqətin ayrılması belə özlüyündə gecikib. Qeyd edək ki, I Qarabağ müharibəsi zamanı Ermənistanın təcavüzü və işğalçılıq siyasəti nəticəsində itkin düşmüş minlərlə azərbaycanlının taleyindən bu günə qədər də xəbər yoxdur. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində I Qarabağ müharibəsində 3 890 nəfər Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb.***



## Aktual

Onlardan 3 171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslər içərisindən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri yaşlı insanlar olub. İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfər, o cümlədən 29 uşaq, 98 qadın və 112 qoca əsir-girov götürülmüş və ya işğal edilmiş ərazilərdə qalıb. Sonradan azad olunmuş əsir və girovlar həmin şəxsləri sağ gördüklərini təsdiq ediblər. Ermənistan münaqişənin bütün dövrü ərzində bu şəxslər barədə məlumatları beynəlxalq təşkilatlardan gizlədib, onların sonrakı taleyi barədə məlumat verməkdən yayınıb.

I Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 54 nəfəri Ermənistan tərəfində saxlanıldıqları vaxt sağ ikən onlarla müxtəlif vaxtlarda BQXK-nın nümayəndələri görüş keçirib. Sonradan onlardan 17-nin meyiti təhvil verilib, 33-nün ölümü barədə məlumat verilsə də, onların meyitləri qaytarılmayıb, 4-ü barədə isə ümumiyyətlə heç bir məlumat almaq mümkün olmayıb. I Qarabağ müharibəsi dövründə 1 480 nəfər azərbaycanlı erməni əsir-girovluğundan azad edilib. Azərbaycanın I Qarabağ müharibəsi dövründə məruz qaldığı itkinlər, əsir və girovlarla bağlı haqlarımızın beynəlxalq müstəvidə tanınması və qorunmasında atılan addımlar perspektivlərlə bağlı nələri söyləmək olar?

■ **Tarixçi alim, Qafqazşünaslıq İnstitutunun, Ermənişünaslıq kafedasının müdiri Qasım Hacıyev hafta.az-a açıqlamasında bildirib ki, 100 ildən artıqdır, süni köçürülmə yolu ilə gəlib Qafqazda yerləşən və bu gün qonşu sayılan ermənilərin Azərbaycana qarşı törətdiyi cinayətlər o qədər böyükdür ki, saymaqla bitmir.** Onun sözlərinə görə, Qafqazda azərbaycanlılara, türklərə qarşı terror, soyqırımlar, deportasiya aktları törədən ermənilər haqqında dəfələrlə deyilib, yazılıb və bundan sonra da deyilməlidir: "Dünyanın sonu deyil, qonşu da olmalıdır, dost da olmalıdır, münasibətlər də gözlənilməlidir, insanlar sülh şəraitində yaşamalıdırlar. Daimi müharibə ola bilməz. Müharibələr sülhün pozulduğu anlarda, ədalətin öz yerini tutmadığı halda baş verir və uzun çəkir. Ermənilərlə bizim xalq arasında baş verən münaqişələr, müharibələr də çox acınacaqlı sonluqlarla başa çatıb. Minlərlə günahsız insan öldürülüb, yüzlərlə şəhər və kəndlər dağıdılıb, abidələr məhv edilib.

Q.Hacıyev I Qarabağ müharibəsində 1000-lə ölən, yaralanan, əsir və girov götürülənlərin olduğunu önə çəkməklə, çox az adamların girovluqdan, əsirlikdən qayıtdığını qeyd edib.

"Ermənistan heç bir hüquq prinsipinə, heç bir beynəlxalq normalara hörmət qoymadı. Eyni zamanda əsir düşmüş və girov götürülmüş insanlarımızın da geri qaytarılmasına əməl etmədi. Yüzlərlə, minlərlə insan bundan ziyan çəkdi. Azərbaycan Ermənistanın işğalçılıq siyasəti, təcavüzü nəticəsində meydana gələn müharibədə ona cavab vermək, özünü müdafiə eləmək, Ermənistanı başa salmaq məqsədi ilə döyüşllər keçirib, müharibələr aparıb. Götürülən əsirləri isə vaxtında və ləyaqətlə saxlayaraq geri qaytarıb. Hadisələrin gedişi və əsirlikdən qayıdanlar danışırlar ki, ermənilər nə əsirlərin saxlanılmasında, nə qaytarılmasında heç vaxt ləyaqətli, ədalətli mövqe tutmayıb, hər bir addımda öz vəhşiliyini, vandallığını göstərib". Q.Hacıyev bu mənada beynəlxalq təşkilatlardan istəyimizin, gözləntilərimizin çox olduğunu deyib: "Çox güman ki, hələ də Ermənistanda Azərbaycanın əsir götürülmüş insanları var. Ermənilər həmişə bu tələblərin yerinə yetiriməsindən imtina etdikləri üçün beynəlxalq təşkilatlardan bu hadisələrin beynəlxalq müstəvidə düzügün tanınması, düzgün qərar çıxarılmasını tələb edirik. Hər bir hərəkətdə, hər bir addımda erməniləri daha üstün tutaraq onların hər bir nəfərinin, hər bir abidəsinin, hər bir ziyanının dərdini çəkən ona hörmətlə yanaşan Avropadan da dünyadan da tələb edirik ki, artıq kifayətdir, nəhayət, düzgün mövqe tutsunlar, beynəlxalq hüquqa uyğun mövqedən çıxış etsinlər. Ədalət prinsipini gözləsinlər, Azərbaycan əsrilərinə, girovlara qoyulan hörmət də beynəlxalq səviyyədə tanınsın".

■ **Hərbi ekspert Elxan Şıxəliyev hafta.az-a açıqlamasında bildirib ki, Azərbaycanın aidiyyəti dövlət orqanları itkin düşən insanlarımızın axtarışı yönündə fəaliyyətini davam etdirir.**

Onun sözlərinə görə, I Qarabağ müharibəsi dövründə müharibədə iştirak etmiş və işğal faktından dolayı ermənilərin əlinə keçən ərazilərimizdə həm əsir götürülmüş, həm də şəhid olaraq o ərazilərdə qalan kifayət qədər vətəndaşlarımız var:

> *Azərbaycanın aidiyyəti dövlət orqanları itkin düşən insanlarımızın axtarışı yönündə fəaliyyətini davam etdirir*

"Ərazilər işğaldan azad olunub. Ermənilərin kütləvi şəkildə soyqırım törədib basdırdıqları məzarlıqların yerləşdiyi ərazilər bizim nəzarətimizdədir.Baş vermiş hadisələrin şahidləri o yerləri göstərdikcə o zaman qətlə yetirilən vətəndaşlarımızın nəşlərinin tapılmasına nail olacağıq".

E.Şıxəliyev statistik göstəricilərə əsasən bildirib ki, 44 günlük Vətən müharibəsində əldə edilmiş Zəfərdən sonra yaranmış yeni situasiyada I Qarabağ müharibəsində itkin düşmüş şəxslərin sonrakı taleyinin aydınlaşdırılması ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. O, 2021-ci ilin fevral-2022-ci ilin aprel ayına qədər işğaldan azad edilmiş Şuşa rayonu Daşaltı kəndi, Xocavənd rayonu Edilli kəndi, Xocalı rayonunun Fərrux və Daşbaşı kəndləri ərazisində müəyyən edilmiş kütləvi məzarlıqlarda aparılmış ekshumasiya zamanı, həmçinin, işğaldan azad edilmiş Ağdam, Şuşa, Göygöl, Tərtər, Füzuli, Kəlbəcər və Zəngilan rayonları ərazilərdə tikinti-quruculuq işləri aparılarkən 82 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları müəyyən edilərək götürüldüyünü də xatırladıb. Eyni zamanda bildirib ki, I Qarabağ müharibəsi zamanı şəhid olmuş və Respublikanın 13 şəhər və rayonunun ərazisində yerləşən 21 qəbiristanlıqdakı 191 naməlum şəhid məzarından 183 meyit qalığı ekshumasiya edilib.

Hərbi ekspert hesab edir ki, bu proses dövlət komissiyasında itkin kimi adları keçən vətəndaşlarımızın siyahılarda adlarının azalmasına gətirib çıxaracaq:

"Düşünürəm ki, Dövlət Komissiyası Ermənistanın müvafiq qurumları ilə koordinasiyalı şəkildə şahidlərin, əraziləri bilən adamların cəlb edilməsi ilə I Qarabağ müharibəsində qətlə yetirilmiş azərbaycanlıların məzarlarınn aşkar olunmasına nail olacağıq. Əslində itkisi, şəhidi, əsiri olan ailələr onların taleyi barədə məlumatlı olduqca, bu da onlara bir təsəlli tapırlar. Bu olmadıqca vətəndaşlar öz yaxınlarının sağ olması barədə düşünə bilirlər və "nə vaxta qayıdacaq" düşüncəsində olurlar".

Hərbi ekspert hesab edir ki, sülh sazişi çərçivəsində dövlət orqanları öz aralarında itikin düşən vətəndaşlarımızın yerlərinin tapılması, onların nəşinin yerlərinin bilinməsi yönündə ciddi addımlar atacaqlar. Hərbi ekspert I Qarabağ savaşında, ümumən müharibə zamanı itkin düşən hərbçiərin müəyyən olunması prosesində beynəlxalq təşkilat kimi Qırmızı Xaç Cəmiyyətinin icraçı olaraq fəaliyyətini önə çəkib. Onun sözlərinə görə, atəşkəs dövründə müharibə gedən ərazidə əsir, girov, yaxud həlak olanlar qarşılıqlı geri götürmə prosesi ilə həll olunurdu: "Əlbəttə ki, hərbçinin nəşinin geri alınması dövlətin siyasi iradəsinin istəyi üzərinə həyata keçirilir. Əslində, atəşkəs dövründən əvvəl yeri bilinən nəş geri alınırdı. Onu gerigötürmə ATƏT-in Minsk Qrupunun səhra köməkçilərinin razılaşdırılması, eləcə də Qırmızı Xaç Cəmiyyətinin Azərbaycanın Əsir və Girovlarla bağlı dövlət qurumunun qarşılıqlı koordinasiyası şəklində dövr edə bilirdi.

Bilinən nəşin gizlədilməsinin heç bir əhəmiyyəti olmurdu. Atəşkəsəqədərki dönəmdə isə erməni tərəfdə qalan, Xocalı soyqırımı, Ağdaban bölgələrində baş verən soyqırımlarda basdırılan insanlarımızın çoxlarının yerləri bilinmirdi. Onların şahidləri ermənilərdir və ermənilər də göstərməlidirlər ki, Azərbaycan vətəndaşlarını harda qətlə yetirib basdırıblar".

■ **Politoloq Turan Rzayev hafta.az-a açıqlamasında bildirib ki, hazırda əsasən terror, siyasi müharibələr və ya diktatura rejimlərində insanların zorla qaçırılması halları ilə üzləşən şəxslər itkinlik statusu daşıyır.**

Politoloq təəssüflə qeyd edib ki, ölkəmizdə də itkin düşənlərin sayı kifayət qədərdir. Xüsusilə 1988-ci il qərbi azərbaycanlıların Ermənistandan deportasiyası zamanı və I Qarabağ müharibəsi zamanı Ermənistanın təcavüzü və işğalçılıq siyasəti nəticəsində itkin düşmüş minlərlə azərbaycanlının taleyindən bu günə qədər xəbər yoxdur.

"Bu kontekstdə Azərbaycan itkin düşmüş vətəndaşlar və onların ailə üzvləri ilə bağlı beynəlxalq hüquq və milli qanunvericiliyin tələblərinə uyğun olaraq bütün müvafiq tədbirləri həyata keçirir. Ölkədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası fəaliyyət göstərir. 1993-cü ildə Azərbaycan Respublikasının Əsir və itkin düşmüş girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası yaradılıb.

Rəsmi Bakı 44 günülk Vətən müharibəsi nəticəsində Qarabağda 27 illik erməni işğalına son verdi. İşğaldan azad edilən ərazilərdə bərpa prosesi ilə paralel olaraq, həm də itkin düşmüş vətəndaşlarımızın axtarış işləri aparılır. Bu şəxslər haqqında məlumatlar erməni tərəfindən dəfələrlə istənilib.

> *Rəsmi İrəvan hər nə qədər itkin düşmüş Azərbaycan vətəndaşları ilə bağlı onlarda məlumatların olmadığını desə də, aydındır ki, məlumatlar məqsədli şəklildə gizlədilir*

Hazırkı şəraitdə itkinlərin taleyinin müəyyən edilməsinə real mane şübhəsiz ki, Ermənistan tərəfidir. Belə ki, rəsmi İrəvan itkin düşmüş azərbaycanlılar haqda məlumatları təqdim etmədiyi kimi, onların nəşinin harada olduğunu da demir. İşğaldan azad edilmiş ərazilərdə çoxsaylı minaların olması da rəsmi Bakının axtarış işlərini gec aparmasına səbəb olur".

T.Rzayev bildirir ki, rəsmi İrəvan hər nə qədər itkin düşmüş Azərbaycan vətəndaşları ilə bağlı onlarda məlumatların olmadığını desə də, aydındır ki, məlumatlar məqsədli şəklildə gizlədilir: "Məsələ ondadır ki, ermənilər Birinci Qarabağ müharibəsi zamanı əsir götürdükləri azərbaycanlıları məcburi şəkildə işlədib, cinsi istismara məruz qoyub, insan alverinə cəlb edib, orqanlarını qeyri-qanuni satıb, onlar vəfat etdiyi zaman isə dilə gətirilməyəcək şəkildə dəfn edib. Bütün bunların hamısı isə insan haqları və beynəlxalq hüquqa ziddir.

Ermənistan tərəfi bu gün bu faktların ortaya çıxmasını istəmir və buna görə də həmin şəxslərlə bağlı məlumatları gizlədir. Bütün hallarda həqiqət gec-tez üzə çıxır və biz bu gün də bunun şahidi oluruq. Belə ki, 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə aparılan qazıntı işləri nəticəsində Xocalının Fərrux, Xocavəndin Edilli, Kəlbəcərin Başlıbel kəndində kütləvi məzarlıqlar aşkarlanıb. Kütləvi məzarlıqlar erməni vəhşiliyinin əyani sübutudur".

***✍ Tahirə Qafarlı***




ədəbiyyat

# Uşaq ədəbiyyatı

## (Məktəbəqədər səviyyədə)

***Zaur Ustacın EYUDER AZƏRBAYCAN, ADPU, Türkiyənin Kayseri Universiteti və Təhsil İnstitutunun birgə təşkilatçılığı ilə 29 avqust 2022-ci il tarixdə keçirilmiş "Məktəbəqədər təhsilə yeni baxış" mövzusunda beynəlxalq onlayn konfransda çıxış məqaləsi.***

Salam, dəyərli qonaqlar və konfrans iştirakçıları!

Bu görüşdə müasir uşaq ədəbiyyatının (məktəbəqədər səviyyədə) yaranmasında fəal iştirak edən, öz töhfələrini vermiş yaradıcı şəxs olaraq aşağıdakı dörd əsas istiqamət (sual) ətrafında öz fikirlərimi sizinlə bölüşəcəm:

1. Necə olub?
2. Necə var?
3. Necə olmalıdır?
4. Nəyə əsaslanırıq?

Azərbaycan uşaq ədəbiyyatının ilk nümunəsi kimi böyük mütəfəkkir Nizami Gəncəvinin "Oğlum Məhəmmədə nəsihət" ("Leyli və Məcnun" poemasından) qəbul edilir. Abbasqulu ağa Bakıxanovun "Nəsihətləri" də gənc nəslin təlim-tərbiyəsində mütləq istifadə olunmalı əhəmiyyətli vəsaitdir. Ancaq bugünkü konfrans mövzusunun predmeti məktəbəqədər səviyyə olduğuna görə biz sadəcə bu xatırlatma ilə kifayətlənir və relamenti də nəzərə alaraq birbaşa mətləbə keçirik.

Söhbətimin birinci hissəsinə hamımıza yaxşı tanış olan "Uşaq və buz", "Gəl, gəl a yaz günləri" (Mirzə Ələkbər Sabir), "Xoruz", "Keçi" (Abdulla Şaiq) nümunələri ilə başlayaraq, "Necə olub?" sualını cavablandırmağa çalışacam (xahiş edirəm həm indi, həm də gələcəkdə istənilən məsələyə münasibət bildirəndə fikirlərin subyektivliyini qəbul edin - bütün alternativ münasibətlərə hörmətlə yanaşıram):

"UŞAQ VƏ BUZ", "GƏL, GƏL, A YAZ GÜNLƏRİ", "XORUZ", "KEÇİ" nümunələri təqdim olunur.

Əminəm ki, yuxarıda sadaladığım nümunələr hamıya tanışdır. Elə məhz bu səbəbdən onların üzərindən (əsasında) söhbətimizə davam edəcəyik. Demək olar ki, bütün sonrakı problemlər bu nümunələr əsasında çözüləcək. Zamanla bizdən əvvəlki nəsil, biz, bizdən sonra gələn nəsillər fərqinə varmadan bu şeirlərlə dünyanı, ətraf aləmi tanıyıb, dərk edərək böyüyüb, böyüyür və böyüyəcəklər.

İkinci sual söhbətimizin əsasını təşkil etdiyinə görə əsasən hal-hazırda (2011-ci ildən) istər məktəbəqədər təhsil müəssisələrində, istərsə də məktəb və liseylərin məktəbəhazırlıq qruplarında (4 hissəli "Məktəbə hazırlaşırıq" dərslikləri üçün nəzərdə tutulmuş eyni adlı metodik vəsait əsasında - 2019-cu ildən) geniş istifadə olunan müəllifi olduğum "Güllünün şeirləri", eyni zamanda Təhsil İnstitutunun tərtib etdiyi məktəbəqədər təhsildə böyük qruplar (4-5 yaş) üçün "Müntəxəbat"a da daxil edilmiş şeirlərin yer aldığı "Uşaq boğçası" adlı kitablardan misallar gətirməklə bu barədə ətraflı danışacam.

"Güllünün şeirləri" kitabı barədə: Kitabda əlifbamızda olan bütün hərflərə aid şeirlər və rəqəmlərə aid tapmaca-şeirlər toplanıb. Kitab 2011-ci ilin sentyabr ayından internet üzərindən tam pulsuz və təhlükəsiz şəkildə yayımlanır (istifadədədir). Kitabdakı şeirlərin böyük əksəriyyəti 2019-cu ildən Təhsil Nazirliyi (Təhsil İnsitutu) tərəfindən 4 hissəli "Məktəbə hazırlaşırıq" dərslikləri üçün nəzərdə tutulmuş eyni adlı metodik vəsaitə daxil edilmişdir. 2011-ci ildən bu günə qədər dəfələrlə üzərində yenidən işlənərək (dəyişiklik zamanın tələbidir) nəşr olunmuşdur. Hal-hazırda internetdə mövcud olan (pulsuz) elektron variantı ilə yanaşı ənənəvi kitab formasında nəşr olunmuş variantları da kitab mağazalarında satışda var. Kitabdan nümunələr: "A", "1", "5", "N", "Ə", "10", "L" təqdim olunur.

Təhsil İnstitutunun tərtib etdiyi məktəbəqədər təhsildə böyük qruplar (4-5 yaş) üçün "Müntəxəbat"a da daxil edilmiş şeirlərin yer aldığı "Uşaq boğçası" adlı kitablardan misallar gətirmək istəyirəm. Kitab iki hissədən ibarətdir. Birinci hissədən:

"OTAQ", "ƏŞYALAR", "İKİNCİ EVİM" nümunələr təqdim olunur.

Və digər şeirlərlə uşaq ətraf aləmi tanıyır. Yəni tanıdıqlarının adını öyrənir və şeir vasitəsi ilə yaddaşına həkk edir. Sadəcə "tavan", "döşəmə" və digər bu kimi sözlərin uşağın məktəbəqədər səviyyədə öyrənib, mənimsəyərək istifadə etməsinin əhəmiyyəti böyükdür (qarşıda bu məsələyə bir daha qayıdacam).

İkinci hissədən:

"MƏN BABƏKƏM", "ŞAH İSMAYIL" nümunələr təqdim olunur.

Olan nümunələrdə isə uşaqlar öz milli kimliklərini, əcdadlarını tanıyırlar. Belə misalları artırmaq, bu mövzuda söhbəti saatlarla davam etdirmək olar. Ancaq söhbət nə qədər uzun olsa da, onu bir yerdə müəyyən nəticə ilə yekunlaşdırmalı oluruq. "Buz", "keçi", "xoruz" -dan "tavan", "döşəmə", "Şah İsmayıl"-a qədər keçilən yol sonsuzdur və o hər gün yeni aşırımlar, döngələrlə zənginləşir.

Şübhəsiz ki, müsair uşaq ədəbiyyatı təkcə Zaur Ustacdan, onun yazdıqlarından ibarət deyil. Hələ ötən əsrdən günümüzə körpü atan Zahid Xəlili, Qəşəm İsabəylini, Rafiq Yusifoğlunu, orta nəsil nümayəndələrindən Qəşəm Nəcəfzadəni, İbrahim Yusifoğlunu, Rəfiqə Qasımqızını, Mina Rəşidi və gənclərdən Əyyub Türkayı misal göstərmək olar.

Yəqin ki, Rafiq Yusifoğlunun "Üçrəngli bayraq" şeiri hamınıza tanışdır (nümunə təqdim olunur).

Bu üç bəndlik şeir bizim balaca dostumuza öz bayrağını sevdirir, tanıdır.

Gənc uşaq yazarlarından məqsədyönlü şəkildə çalışan, yazıb-yaradan Əyyub Türkaydır. Onun yaratdığı nümunələr canlı təbiət lövhələrindən qaynaqlanır. Təbii və axıcıdır. Balacalar valideynlərinin və tərbiyəçi-müəllimlərinin köməkliyi ilə onlar üçün, onların diliylə yazılmış şeirlərlə ətraf aləmi tanıyır, dünyamızı öyrənirlər.

Ədəbiyyatın (uşaq ədəbiyyatının) keçmişdə, indi və gələcəkdə də məqsədi birdir, öyrənməyi asanlaşdırmaq.

Və bax elə bu "öyrənməyi asanlaşdırmaq" tezisi bizim bugünkü söhbətimizin üçüncü sualına keçid verir. Bu suala cavab verərkən hələ çox əvvəl (2016) yazdığım və hal-hazırda da internet üzərindən və ənənəvi formada kitabxanalardan (Zaur Ustac "Qələmdar", Bakı, 2020.) əlçatan olan "Mütaliə niyə vacibdir? (Beşinci yazı) adlı məqalələmdən bir parçanı təqdim etmək istəyirəm (qeyd olunan məqalədən-internetdə var- əsas məqamlar dinləyicilərə təqdim edilir).

Təlim, təhsil mədəniyyətə gedən yol, ədəbiyyat və incəsənət isə bu uzun yolda yol yoldaşı, vasitədir. Uşaq ədəbiyyatı dedikdə isə ən həssas məqam, ən incə məsələ anlayışı kimi qəbul edilməlidir. Mənim və yuxarıda adlarını sadaladığım şairlərimizin zaman-zaman misra-misra, bənd-bənd qələmə aldığı şeirlər toplanır, zamanın süzgəcindən keçir və nəhayətdə ədəbiyyata (uşaq ədəbiyyatına) çevrilir.

İstər mənim "Gülünün şeirləri", "Güllünün şeirləri", "Gülüzənin şeirləri", "Uşaq boğşası", "A1" və gələcəkdə olacaq uşaq şeirləri kitablarındakı şeirlər, istərsə də digər müəlliflərin yaratdıqları əsərlər bir məqsədə xidmət edir. Bu məqsəd isə konkret olaraq məktəbəqədər təhsildə və ibtidai təhsilin məktəbəhazırlıq qruplarında ətraf aləmlə tanışlıq, milli dəyərlər, ana dili və hesab haqqında biliklərin ötürülməsindən ibarətdir. XXI əsr insanına qoyulan tələbləri nəzərə alsaq xarici dil, kompüter biliklərini də şeir və hekayələrlə uşaqlara ilkin formada aşılamaq lazımdır. Vurğulamaq istəyirəm ki, müasir uşaq ədəbiyyatı nümunələri ətraf aləmlə tanışlıq, milli dəyərlər, ana dili və hesab haqqında ilkin anlayışlar kimi bilikləri mütləq özündə ehtiva etməlidir.

Azərbaycan dünyanın ayrılmaz, inkişaf etməkdə olan bir hissəsi kimi dünyada, dünya təhsilində, təlim-tərbiyəsində gedən problemlərdən kənarda qala bilməz. Müasir dünyada insanın yiyələnməli olduğu kompetensiyalara nəzər salaq:

1. Ana dilində ünsiyyət,
2. Xarici dillərdə ünsiyyət,
3. Riyazi savad, elm və texnologiya,
4. Kompüterdən istifadə,
5. Öyrənməyi öyrənmək,
6. Sosial vətəndaşlıq,
7. Təşəbbüskarlıq və sahibkarlıq,
8. Mədəni məlumatlılıq və özünü ifadə etmək.

Diqqət etsək görərik ki, birinci, ikinci, üçüncü sualları cavablandırarkən bütün istifadə etdiyimiz nümunələr və verdiyimiz açıqlamalar hamısı məhz bu əsas tələblərin ödənilməsinə, yəni insan yetişdirməyə xidmət edir. Gələcəkdə bütün yaradılacaq nümunələr də bu yöndə inkişaf etdirilməli, zamanla ayaqlaşmalı, zənginləşməlidir.

Sonda kiçik yaşlı uşaqlar üçün maraqlı və əhəmiyyətli olan nümunələrdən bir neçəsini misal göstərmək istəyirəm (tövsiyə xarakterli):

Rafiq Yusifoğlundan; "Nağıl qapısı", "Yaddaş kitabı" (1-2), "Vətən ətri", "Şuşa yolu",

Qəşəm Nəcəfzadənin; "Yatmış dəniz şəkli", "Çiçəkli xalça", "Şuşa qalxıb ayağa",

İbrahim Yusifoğlunun; "Futbolçu, topçu, gobçu", "Arpaçayın uşaqları", "Azərbaycan Vətənimdi", "Vətən nəğməsi", "Qıymayın uşaqlara",

Mina Rəşidin; "Böyüklər bizə baxsın", "Balaca günəş", "Meyvələrin şöhrəti", "Jalənin əlləri" (Türkiyədə nəşr olunub),

Əyyub Türkayın "Balacaların şeir çələngi",

Zaur Ustacın (mənim) "Güllünün şeirləri", "Uşaq boğçası", "Gülüzənin şeirləri", "Gülünün şeirləri", "A1".

Azərbaycan Respublikasının Təhsil İnstitutunun «Məktəbəqədər təhsilin inkişafı» şöbəsinin müdiri Laləzar Cəfərova (konfrans iştirakçısıdır) rəhbərliyi ilə ərsəyə gəlmiş və internetdə ümumi istifadədə olan metodiki vəsaitlər, müntəxəbatlar.

Ümumiyyətlə, "Google" və digər anoloji axtarış sistemlərində "uşaq şeirləri", "hərflərə aid şeirlər", "rəqəmlərə aid şeirlər" və s. oxşar açar sözlərdən istifadə etməklə internetdən səmərəli şəkildə yararlanmaq olar.

Təşkilatçılara və iştirakçılara təşəkkürümü bildirirəm. Uşaq ədəbiyyatı (məktəbəqədər təhsil səviyyəsində) mövzusu adı altında bir çox zəruri məsələlərə toxunduq. Bunun ümumi işə faydası olacağı qənaətindəyəm. Sağ olun.

***✍ Zaur USTAC,***
***"Yazarlar" jurnalının baş redaktoru, şair-publisist***

# Sentyabrdan toy mövsümü başlayır

***Avqustun 28-i Məhərrəm ayı başa çatıb, 29-dan Səfər ayı başlayıb və sentyabrın 26-da başa çatacaq. Məlum olduğu kimi, hicri təqvimin ilk iki ayında (Məhərrəm və Səfər ayları) Azərbaycanın əksər bölgələrində toy mərasimləri təxirə salınır. Bu o deməkdir ki, sentyabrdan həm də toy mövsümü başlayır. Maraqlıdır, görəsən, ərzaq məhsullarının bahalaşması fonunda yeni toy mövsümündə şadlıq saraylarında menyu qiymətlərində bahalaşma gözlənilirmi? Əgər bahalaşma baş verərsə, bu, təxminən, neçə faiz civarında olacaq?***

## Sosium



“

*Şadlıq saraylarında menyuların qiyməti bahalaşacaq?*

Yeri gəlmişkən xatırladaq ki, bu ilin iyun ayında toy və şənliklərin sayının azalmasına baxmayaraq, şadlıq saraylarında menyuların qiyməti, orta hesabla, 5 faiz bahalaşıb. 40 manatadək olan menyularda qiymət artımları 3 faiz, 40-80 manat arasındakı menyularda 5 faiz, 80 manatdan yüksək qiymət təklif edilən menyularda isə artım 7 faiz olub.

■ **Mövzu ilə bağlı şadlıq sarayları arasında sorğu keçirdik. Belə məlum oldu ki, şadlıq evlərində, artıq 25-30 manata menyu yoxdur və menyuların qiyməti hələ bir neçə ay öncə bahalaşıb.** Yeni toy mövsümündə isə təkrar qiymət artımı istisna deyil. Eyni zamanda, bəzi şadlıq sarayları ərzaq məhsullarının qiymətinin sürətlə bahalaşması səbəbindən endirimləri də ləğv ediblər.

”Xəmsə” şadlıq sarayından hafta.az-a bildirilib ki, onlarda toy mövsümü sentyabrın 28-dən başlayacaq: “Bizdə Məhərrəm ayından sonra ilk toy sentyabrın 28-nə təyin olunub. Menyu qiymətlərində dəyişiklik olmayacaq, amma endirimlər o dərəcədə olmayacaq. Əvvəl müştərilərə endirim edə bilirdik. İndi bahalaşma ilə bağlı münasib qiymətlər yaza bilmirik. Bizdə hazırda 3 cür menyu qiyməti var: 60 manat, 70 manat və 90 manat”.

“Su Sonası” şadlıq sarayından isə qeyd etdilər ki, bu sarayda Məhərrəm ayından sonra ilk toy mərasimi sentyabrın 29-na təyin olunub: “Hələlik menyuda ciddi dəyişiklik olmayacaq. Əvvəl necə idi, Məhərrəmlikdən sonra da elə davam edəcək. Bizdə qiymətlər qonağın istəyinə uyğun olaraq dəyişir. Qonağın istəyindən asılı olaraq 70 manata, 80 manata, 90 manata razılaşa bilərik”. “Neolit” şadlıq sarayından bildirdilər ki, onlarda hələlik qiymətlər stabildir: “Bizdə toy sentyabrın 30-dan başlayacaq. Həmin toy əvvəlcədən danışılıb. Ona görə hələlik qiymətlərdə dəyişiklik olmayacaq və əvvəlki qiymətlə işləyəcəyik. Hazırda isə menyularımız 120-150 manat civarındadır”.

“Piano” şadlıq sarayından isə qeyd edilib ki, menyu qiymətlərini müştəri istəyi müəyyən edir: “Bizdə konkret qiymət yoxdur; 35 manatlıq, 40 manatlıq, 45 manatlıq menyu istəyən də var. Həmin istəyə uyğun menyu tərtib olunur. Hələlik qiymətlərimizdə dəyişiklik yoxdur”.

“Meridian Park” şadlıq sarayında toy mövsümü sentyabrın 30-dan başlayacaq. Şadlıq sarayının adminstratoru qiymətlərdə ciddi dəyişiklik olmayacağını bildirib: “Menyumuzda ciddi dəyişiklik olmayacaq. Qiymətlər də hələ ki stabil saxlanılıb. Bizdə 3 formada menyu var. Qiymətləri isə 180, 250 və 320 manatadəkdir”.

“

*Şadlıq saraylarında menyu qiymətləri həddən artıq şişirdilmiş formada qeyd olunur*

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı-ekspert Fuad İbrahimov bildirir ki, Azərbaycanda şadlıq saraylarında menyu qiymətləri həddən artıq şişirdilmiş formada qeyd olunur: “Bizdə bu sektorda qiymətlər onsuz da şişirdilib.** Əgər maya dəyərinə diqqət yetirsək, adambaşına qiymət, hətta 2 dəfədən də artıq baha ifadə olunur. Bəzi hallarda 3-3,5 dəfə də baha qiymət göstərilir. Düzdür, ərzaq məhsulları bahalaşırsa, bu, bütün sahələrə təsir edir. Əlbəttə, bu məsələ xidmət sektorunda ikili reaksiya göstərə bilər. Qeyd etdiyim kimi, qiymətlər süni şəkildə şişirdilmiş formadadır. Əgər şadlıq sarayları qruplaşaraq inhisarçılıqlarını həyata keçirərlərsə, adekvat qiymət artımı davam edəcək.

Digər tərəfdən, əgər sağlam rəqabət olacaqsa, qiymət artımının baş verməməsi, bəzi hallarda, hətta ucuz xidmətin göstərilməsi də nəzərdə tutula bilər. Nəzərə almaq lazımdır ki, belə hallarda keyfiyyət baxımından keyfiyyətsizlik nümayiş oluna bilər. Ümumiyyətlə, institusional olaraq belədir ki, hər hansı bahalaşma baş verərsə, bu, mütləq xidmət sektotuna da təsir edir”.

*Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin GENERALI



Laçın şəhərinin, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi Prezident İlham Əliyevə məruzə olunub. Prezidentə məruz edən hərbçi 5-ci Ordu Korpusunun komandiri, Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Kənan Seyidovdur. Kənan Seyidov İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub. O, müxtəlif illərdə Ümummilli Lider Heydər Əliyev sərəncamı ilə “Azərbaycan bayrağı” ordeni, Prezident İlham Əliyevin sərəncamları ilə isə “Vətən uğrunda” və “İgidliyə” görə medalları ilə təltif olunub.

### Həftənin XƏSTƏSİ



Xalq artisti Ənvər Həsənovun müalicəsi TƏBİB-in tabeliyində olan Xəzər Tibb Mərkəzində davam etdirilir. Bu barədə TƏBİB-dən məlumat verilib. Bildirilib ki, avqustun 30-da “Yeni Klinika” tibb müəssisəsində döş qəfəsinin kompüter tomoqrafiyası edilən Ə.Həsənovun bir neçə gün əvvəl ev şəraitində koronavirusa yoluxduğu məlum olub. COVID-19-la bağlı verilən testin nəticəsi də bu gün - avqustun 31-də pozitiv çıxıb.

### Həftənin ÖLÜSÜ



SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçov dünyasını dəyişib. Bu barədə siyasətçinin müalicə olunduğu Mərkəzi Klinik Xəstəxana məlumat yayıb. “Mixail Sergeyeviç Qorbaçov ağır və uzun sürən xəstəlikdən sonra bu gün (30 avqust - red.) axşam saatlarında dünyasını dəyişib”, - Mərkəzi Klinik Xəstəxanadan bildiriblər. Qeyd edək ki, SSRİ-nin eks-prezidentinin bu il 91 yaşı tamam olub. Mixail Qorbaçov Bakıda 1990-cı il 20 Yanvar faciəsinin əsas təşkilatçısı olub.

### Həftənin TERRORÇUSU



Qarabağdakı separatçı rejimin keçmiş “rəhbəri” Arayik Arutyunyanın “baş müşavir”i vəzifəsini icra etmş Mikael Arzumanyan saxlanılıb. Qondarma rejimin sabiq “komandan”ı olan Arzumanyan Ermənistan İstintaq Komitəsinin Hərbi İdarəsinin göstərişi əsasında Qarabağdan İrəvana gedərkən saxlanılıb. M. Arzumanyanın saxlanılmasının səbəbi hələ ki açıqlanmayıb.

### Həftənin HƏDİYYƏSİ



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan “Başakşehir”in yarımmüdafiəçisi Mesut Özilə saat hədiyyə edib. Bu barədə futbolçu instaqram hesabında paylaşım edib. Saatın üzərində Rəcəb Tayyip Ərdoğanın imzası var. Mətbuatın yazdığına görə, saatın qiyməti 1700 avrodur (2890 manat).

### Həftənin MƏHKUMU



Məhkəmə türkiyəli müğənni Gülşənlə bağlı qərar verib. Sənətçi ev dustaqlığına buraxılıb. Qeyd edək ki, daha əvvəl Gülşənin konsertlərindən birində dediyi “İmam Hatipdə oxuyub, əxlaqsızlığı oradan gəlir” sözləri həmin liseydə oxuyanları və məzunları, eləcə də dindarları qəzəbləndirib. Müğənni İmam Hatip liseyinin məzunlarını hədəf alan sözlərindən sonra saxlanılıb, daha sonra həbs edilib. Onun həbsi ictimaiyyət nümayəndələri, o cümlədən tanınmış şəxslər arasında narazılığa səbəb olub. Gülşən özünü günahkar hesab etməyib və həbs olunmadan mühakimə olunmaq istədiyini bildirib.

*Azad Əliyev*


## “Azercell” Süni İntellekt əsaslı Virtual Assistent xidmətini istifadəyə verir! ®




**Azercell ölkənin telekom bazarında ilk Telefon Mərkəzi Virtual Assistent xidmətini- Aİcell-i məmnuniyyətlə təqdim edir! Bu texnoloji yenilik Süni İntellekt əsasında çalışır və abunəçilərimizin müştəri təcrübəsini zənginləşdirmək üçün tərtib olunub.**

Xidmətin pilot mərhələsində Azercell Telefon Mərkəzinə zəng edən abunəçilərimizi Aİcell adlı Virtual Assistent salamlayacaq və müştərinin sual və istəyini öyrənərək zəngi operatora yönləndirəcək. Azercell tədricən Virtual Assistentin ünsiyyət funksiyalarını və xidmət imkanlarını genişləndirərək, abunəçi istəklərini daha fərdiləşdirilmiş şəkildə həll etmək üçün şərait yaradacaq.

Qeyd edək ki, səs emalı botları telekommunikasiya sənayesində texnoloji sıçrayış hesab olunur. Layihənin ən vacib və maraqlı aspektlərindən biri isə Virtual Assistentin Azərbaycan dilində tam spektrli xidmət göstərməsidir ki, bu isə öz növbəsində müştərilərə yeni təcrübə imkanları yaradacaq.

“Azercell Telekom” MMC “Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik” strateji məqsədinə əsaslanaraq ölkədə innovativ həllər və rəqəmsal xidmətlərin tətbiqini davam etmək niyyətindədir.


## ELAN

**Açıq hərrac:** Hərracı keçirən “Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi” MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. 02/1 Lot üzrə Hərrac 13.09.2022-ci il tarixdə saat 15:00-da Bakı şəh., Yasamal ray., C.Cabbarlı küç., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) növbəliklə keçiriləcək.Hərraca çıxarılan əmlak: İsrafilova Arzu Xanoğlan qızına məxsus Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Aşıq Pəri küçəsi 53 ünvanda yerləşən 0,0428 ha torpaq sahəsi (fərdi yaşayış evinin tikintisi təyinatlı) satış qiyməti - 68 400 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: “Expressbank” ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11-NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

**Açıq hərrac:** Hərracı keçirən “Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi” MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. 03/1 Lot üzrə Hərrac 13.09.2022-ci il tarixdə saat 15:00-da Bakı şəh., Yasamal ray., C.Cabbarlı küç., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) növbəliklə keçiriləcək.Hərraca çıxarılan əmlak: Əliyev Zöhrab Zülfi oğluna məxsus Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsində yerləşən 0,12 ha torpaq sahəsi (fərdi yaşayış evinin tikintisi təyinatlı) satış qiyməti - 86 400 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: “Expressbank” ASC kod 510891; VÖEN 1500-031691; m/h AZ11NABZ0135010-0000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

**Açıq hərrac:** Hərracı keçirən “Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi” MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. 06/1 Lot üzrə Hərrac 23.09.2022-ci il tarixdə saat 15:00-da Bakı şəh., Yasamal ray., C.Cabbarlı küç., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) növbəliklə keçiriləcək.Hərraca çıxarılan əmlak: Rzayev Zaur Fərhad oğluna məxsus “TOYOTA LAND GRUİSER PRADO Mİ” minik markalı 10-ZL-040 dövlət qeydiyyat nişanlı avtomobil (buraxılış ili: 2009-cu il, rəngi ağ mirvari, tip universal, ötürücü qutu avtomat) ilkin satış qiyməti - 34 000 manat.

Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 10% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: “Expressbank” ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01-350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

## GÜNÜN FOTOSU



**Balqabaqla 61 km üzdü**

“

## Xaricdə təhsili seçənlər

**Kamran Əsədov,**
təhsil eksperti

2007-2015-ci illəri əhatə edən ilk proqram çərçivəsində 5 min azərbaycanlının ölkədən kənarda təhsil alması nəzərdə tutulurdu.

▸▸ Səh. 6

## STATİSTİKA



■ **Bu ilin yanvar-iyul aylarında Azərbaycan 93,7 mln. ABŞ dolları dəyərində qızıl ixrac edib, bu da illik müqayisədə 19,8% azdır.**

2021-ci ilin eyni aylarında qızıl ixracının ümumi dəyəri 116,9 mln. dollar təşkil edib. Məlumata görə, bu ilin iyul ayında Azərbaycan 14,4 mln. dollarlıq qızıl ixrac edib ki, bu da illik müqayisədə 60% çoxdur.



▸▸ Səh. 6

## “Azərsu” Laçın, Sus və Zabuxun içməli su təchizatının bərpasına başlayıb